

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Müdrik Lider, Qalib Sərkərdə



5

SƏS

№ 195 (6878)

25 oktyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Qürurla verilən vəd qətiyyətlə gercəkləşdirilir!



3

PREZİDENT İLHAM ƏLİYEV
Böyük qayıdış üçün Qarabağ və Şərqi Zəngəzurda mükəmməl həyat şəraiti yaradır

# Qərb ilə Rusiya arasında qalan Ermənistan TARİXİ SEÇİM QARŞISINDA



6

## YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib



4

## Kənd qadınları: "Bizə pul verməyin, imkan verin"



15

## "Deyirdi, ana, bircə arzum var ki, mən səndən qabaq ölüm"



7

## Kafe və restoranlarda alınan xidmət haqqı kimə çatır?



16

## "Gələn ilin əvvəlində Şuşa şəhərinə qayıdış baş tutacaq"




10

# Dostluq və qardaşlıq münasibətlərimiz hərbi sahədə də uğurla inkişaf edir

## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin milli müdafiə nazirini qəbul edib



Prezident İlham Əliyev oktyabrın 24-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulandı. Bu baxımdan ölkəmizin müxtəlif yerlərində "Mustafa Kamal Atatürk - 2023" Azərbaycan-Türkiyə birgə taktiki təliminin keçirilməsindən, təlim zamanı yüksək peşəkarlığın və bacarığın nümayiş etdirilməsindən məmnunluq ifadə olundu.

Türkiyə Respublikasının milli müdafiə naziri bu təlimlərin Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə təsadüf etməsinin rəmzi məna daşıdığını vurğuladı.

Söhbət zamanı Azərbaycanın və Türkiyənin dövlət başçılarının mütəmadi görüşlərinin və təmaslarının münasibətlərimizin inkişafında rolu qeyd olunaraq, bu ilin sentyabrında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfərinin əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycanın ötən ay həyata keçirdiyi antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunduğu xüsusi qeyd edildi. Söhbət zamanı Yaşar Gülərin Azərbaycana səfərinin əlaqələrimizin inkişafına, o cümlədən hərbi sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət etdiyi bildirildi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Latviyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Prezident İlham Əliyev dünən Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Edqars Skuyanın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin zəngin tarixə malik olduğunu qeyd edərək, qarşılıqlı təmasların, xüsusilə dövlət başçılarının səfərlərinin əməkdaşlığımızın genişlənməsi işinə verdiyi töhfəni vurğuladı.**

Dövlətimizin başçısı iqtisadi əlaqələrə toxunaraq, ticarət, investisiya və digər sahələrdə daha geniş imkanların müəyyənləşdirilməsinin vacibliyini bildirdi. Azərbaycan Prezidenti ölkələrimizin müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev, eyni zamanda, parlamentlərarası əməkdaşlığın da əlaqələrimizin möhkəmlənməsində roluna toxundu, xalqlar arasında təmasların əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. Ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyi qeyd edən səfir Azərbaycanın gözəlliyinin və burada gedən inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi. Edqars Skuya dövlətimizin başçısına Latviya Prezidentinin ölkəsinə rəsmi səfərlə bağlı dəvətini çatdırdı.

Prezident İlham Əliyev dəvəti minnətdarlıqla qəbul etdi. Görüşdə Azərbaycan ilə Latviyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd edildi, Latviyanın ölkəmizdəki səfirliyinin NATO-nun Azərbaycanda əlaqələndirici funksiyasını yerinə yetirməsindən məmnunluq ifadə olundu, Azərbaycan ilə NATO arasında əməkdaşlığın inkişafına töhfə verdiyi vurğulandı. Həmçinin Azərbaycanın həm NATO, həm də Avropa İttifaqı ilə əlaqələrinin inkişafında üzv dövlət olaraq Latviyanın verdiyi dəstək yüksək qiymətləndirildi.





# "Əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial var"

## Prezident İlham Əliyev İsveçrənin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 24-də İsveçrə Konfederasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Ştelin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.**

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin istər siyasi, istərsə də iqtisadi sahələrdə uğurla inkişaf etdiyini bildirərək, özünün Dünya İqtisadi Forumuna səfərləri zamanı İsveçrənin dövlət başçıları ilə mütəmadi görüşlərinin əməkdaşlığın müzakirəsi baxımından önəmini qeyd etdi. Ticarət, iqtisadiyyat, energetika sahələrində əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev İsveçrə şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinə toxundu, onların işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma layihələri ilə bağlı fəal işlədiklərini vurğuladı və bu istiqamətdə yaxşı əməkdaşlığın olduğunu bildirdi.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərdə insanların rahat yaşaması üçün müasir texnologiya, yaşıl enerji, "ağıllı kənd" konsepsiyalarının həyata keçirildiyini deyərək, bunların əməkdaşlığımızda yeni istiqamətlər yaratdığını vurğuladı. Azərbaycan Prezidenti, eyni zamanda, SOCAR-ın İsveçrədəki fəaliyyətini, İsveçrə şirkətlərinin Azərbaycan iqtisadiyyatına investisiya qoymasını biznes sahəsində əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev qarşıdan gələn illərdə əməkdaşlığın daha da genişlənəcəyinə və güclü tərəfdaşlıq əlaqələrinin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi. Səfir, ilk növbədə, Qarabağa səfərinə toxunaraq, orada gedən yenidənqurma işləri ilə tanış olduğunu qeyd etdi, İsveçrə şirkətlərini buraya dəvət etmək istəyində olduğunu dedi.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişafında İsveçrə şirkətlərinin fəal iştirak etdiyini bildirən Tomas Ştel bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı. Azərbaycan ilə artıq 20 ilə yaxındır ki, əməkdaşlıq proqramının həyata keçirildiyini bildirən səfir İsveçrə şirkətlərinin Azərbaycanda makroiqtisadi sahədə, eləcə də maliyyə və özəl sektorların inkişafındakı fəaliyyətlərini məmnunluqla qeyd etdi.





# Qürurla verilən vəd qətiyyətlə gercəkləşdirilir!

## PREZİDENT İLHAM ƏLİYEV Böyük qayıdış üçün Qarabağ və Şərqi Zəngəzurda mükəmməl həyat şəraiti yaradır

**Bir qərinəyə yaxın dövrdə düşmən tapdağı altında əsir həyatı yaşayan Qarabağ və Şərqi Zəngəzurun qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır. Yenidən qurulub abadlaşan, dünyanın ən ecazkar məkanlarından birinə çevrilən bu yurd yerlərimizdə reallaşan möhtəşəm layihələr düşmənin bağrını yarır və Şuşanın, Kəlbəcərin, Ağdamın, Xocavəndin, Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Suqovuşanın timsalında zəfərimiz parlayır. Çünki bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır, Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, qürurla öz doğma torpaqlarımızı qururuq, yaradırıq.**

Prezident İlham Əliyev tarixi Zəfərimizin rəmzi olan Şuşadan xalqa müraciətində bildirmişdir ki, bütün bu işlərin təməlində Azərbaycan xalqının maraqları dayanır: "On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir".

Bəli, Qalib, Qurucu liderimiz, Prezident İlham Əliyev cənablarının birbaşa rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurumuz başdan qurulur, gün keçdikcə tarixi diyarlarımız cənnətə çevrilir.






### BÜTÜN BU QURUCULUQ İŞLƏRİNİN TƏMƏLİNDƏ AZƏRBAYCAN XALQININ MARAQLARI DAYANIR

Sözsüz ki, bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır. Azərbaycan Prezidenti çıxışlarında, müraciətlərində də daima bildirir ki, 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Və Azərbaycan xalqı İlham Əliyeva səs verərək Ulu Öndərə olan məhəbbətlərini və inamlarını göstərdi. Artıq Prezident İlham Əliev cənablarının ilk prezident seçilməsindən ötən 20 il ərzində Azərbaycan sürətli inkişaf və tərəqqi yolunda uğurlu inkişaf yolunda davam etməkdədir.

Hər bir vədin konkret əməli işi ilə təsdiqləyən Azərbaycan Prezidenti İlham Əliyevin Qələbəmizin Zəfərindən ötən üç il ərzində işğaldan azad edilmiş ərazilərimizə səfərləri çərçivəsində təməlqoyma mərasimində iştirak etdiyi yeni sosial obyektlərin say tərkibinə, icrasına başlanan infrastruktur layihələrinə, imzalanan Fərman və sərəncamlara, təsdiqlənən Dövlət proqramlarına diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir!

Bəli, qələbəmizdən 3 il keçməsinə baxmayaraq, dövlət başçımızın dediyi kimi: "Bu bölgə nəinki Azərbaycan üçün, dünya üçün nümunəvi bölgə olacaq. Biz hər şeyi planlı şəkildə edirik. Əlbəttə ki, tələsirik, amma eyni zamanda, tələskənliyə yol vermirik. Bütün tender prosedurları keçməlidir, şəffaflıq tam təmin edilməlidir, orada heç bir inhisarçılıq olmamalıdır. Açıq tender prosedurları təmin edilir və ediləcək. İctimaiyyətə müntəzəm olaraq məlumat verilməlidir və veriləcək".

### AZƏRBAYCAN HEÇ BİR BEYNƏLXALQ MALİYYƏ QURUMUNDAN YARDIM ALMADAN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURU ÖZ İQTİSADİ QÜDRƏTİ HESABINA YENİDƏN QURUR

Hazırda möhtəşəm tarixi qələbənin sevincini yaşayan xalqımız Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun quruculuq salnaməsini yaradır. Düşmənin 30 il ərzində viran qoyduğu ərazilərimizin, daşı daş üstdə saxlamadığı yurd yerlərinin bərpası sürətlə davam etdirilir və Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. Bu ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün daha 5 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Artıq həmin vəsaitin 60 faizi istifadə olunub. Bütövlükdə isə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işlərinə, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək. Bu da Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işlərin sürətlə həyata keçirilməsinə dəlalət edir. Bir sözlə, illərlə əsl sahibinə həsrət qalan torpaqlarımızda infrastruktur yenilənir, dədə-baba yurdlarına qayıdacaq soydaşlarımızın rahat yaşaması, işlə təmin olunması, onların təhlükəsizliyi və istirahəti üçün hər cür şərait yaradılır. Bu reallıq bir daha sübut edir ki, Azərbaycan heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan Qarabağ və Şərqi Zəngəzuru öz iqtisadi qüdrəti hesabına yenidən qurur.

### "BU GÜN BİZ GƏLƏCƏYİ YARADIRIQ, ÖZ ƏLLƏRİMİZLƏ YARADIRIQ"

Bir sözlə, bu gün Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəlir, tarixi torpaqlarımıza həyat qayıdır. İşğaldan azad edilən tarixi torpaqlarımızda görülən bütün bu irimiqyaslı işlər birbaşa Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında həyata keçirilir. Çünki hər zaman çıxışlarında "Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq", - söyləyən İlham Əliyev bildirir ki, bu istiqamətdə qarşıya qoyulan bütün hədəflər təmin edilir, 30 il ərzində əziyyət, mənəvi əzab içində yaşamış köçkünlərin qısa müddət ərzində öz doğma torpaqlarına qaytarılması üçün mühüm layihələr gerçəkləşdirilir.

Bir sözlə, dövlət başçısının düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrası həm Azərbaycana böyük iqtisadi və siyasi dividendlər qazandıracaq, həm də dünya bir daha şahidi olacaq ki, Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir. Bu günün reallıqları isə bir daha göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Və bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş kəndlərimiz, şəhərlərimiz yenidən, qurulur, dirçəlir. Bütün işlər ardıcıl və sistemli şəkildə həyata keçirilir.

Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar.

***RƏFİQƏ KAMALQIZI***

# Nazirlər Kabinetində Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üzrə görülmüş işlər müzakirə olunub

Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına nəzarətin və hesabatlılığın həyata keçirilməsi və tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumatın verilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılıb. Bu tapşırıqdan irəli gələrək oktyabrın 24-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üzrə nəzarət tədbirlərinin nəticələri haqqında iclas keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Dövlət Proqramının icrasına məsul olan aidiyyəti dövlət qurumlarının rəhbərləri və işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri iştirak ediblər.



İclasda Dövlət Proqramında nəzərdə tutulmuş müvafiq tədbirlərin icrası üzrə işlərin gedişinə nəzarətin birbaşa operativ və səmərəli təmini məqsədilə yaradılmış çoxfunksional interaktiv (onlayn rejimdə kamera və peyk xəritələri) Elektron Portalın təqdimatı (boyukqayidish.gov.az) keçirilib, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı 2023-cü ilin birinci yarımilliyi üzrə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində aparılmış monitorinq və qiymətləndirmənin nəticələri barədə hazırlanmış Hesabatla çıxış edib.

Sonra iclasda işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri tərəfindən görülən işlər barədə məlumat verilib və hesabatla bağlı ətraflı müzakirələr aparılıb. Müzakirələr zamanı Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası zamanı müşahidə olunan əsas çətinliklər və növbəti müddətdə diqqət yetirilməli istiqamətlər vurğulanıb.

İclasın yekununda "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində aparılmış monitorinq və qiymətləndirmənin nəticələri barədə hazırlanmış hesabatın Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi, habelə Dövlət Proqramının növbəti icra mərhələsində işlərin operativ, vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi, həmçinin layihələrin icrası prosesində qarşıya çıxan çətinliklərin həlli üçün aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.

# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib



**Oktyabrın 24-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının inzibati binasında qanvermə aksiyası keçirilib. Aksiya YAP Mərkəzi Aparatı və Səhiyyə Nazirliyinin Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankının birgə təşkilatçılığı ilə baş tutub. Aksiyada partiyanın Mərkəzi Aparatının əməkdaşları da daxil olmaqla 300-dən çox YAP üzvü iştirak edib. Qanvermə aksiyasına Mərkəzi Qan Bankını təmsil edən tibbi heyət cəlb olunub.**



Mərkəzi Qan Bankının müdir müavini Xəyalə Qafarova bildirib ki, aksiyanın məqsədi talassemiya, irsi qan xəstəliklərindən və digər profilli xəstəliklərdən əziyyət çəkən insanlara dəstək verməkdir. Burada toplanan qan bu kateqoriyalardan olan xəstələr üçün istifadə olunacaq.

Onun sözlərinə görə, qanvermə həm məsuliyyətli, həm də xeyirxah və qürurverici missiyadır: "Qana həmişə ehtiyac var. Çünki qanı heç bir dərman vasitəsi əvəz edə bilməz. İnsanlar qan verən zaman bir insanın deyil, üç insanın həyatını xilas etmiş olurlar. Çünki qan müxtəlif komponentlərə ayrılır ki, bunlar da ayrı-ayrı xəstələrə köçürülür. İnsanlar ildə bir neçə dəfə qan verə bilərlər. Qanvermənin bir çox faydaları var. Bu, təzyiq xəstələri üçün faydalıdır, eləcə də infarkt riskini aşağı salır. Yeni Azərbaycan Partiyası qanvermə aksiyalarına hər zaman dəstək olur. Budəfəki təşəbbüsünə görə də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatına və əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk. Ümid edirik ki, belə aksiyalar bundan sonra da davam edəcək".






# Ukraynanın "Rada" telekanalında Qarabağ ətrafında vəziyyət müzakirə edilib

**Ukraynanın "Rada" dövlət informasiya-analitik telekanalında Azərbaycanın Qarabağ bölgəsi ətrafında vəziyyət, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması və Azərbaycanın təcrübəsinin öz ərazilərinin işğalından əziyyət çəkən digər ölkələr üçün əhəmiyyəti müzakirə edilib. Oleksiy Qomon və Katerina Derkaçın aparıcısı olduqları proqramda ekspert qismində jurnalist, Ukrayna-türk layihələrinin kuratoru Marına Qonçaruk çıxış edib.**

Marına Qonçaruk canlı efirdə diqqəti Qarabağda vəziyyətin tarixi konteksti üzərində cəmləşdirib, xüsusən Gülüstan və Türkmənçay müqavilələri, məhz Azərbaycanın cənub və şimal hissəsinin Qacarlar İranı və Rusiya imperiyası tərəfindən işğal olunması, həmçinin ermənilərin Azərbaycan xanlıqları ərazilərinə köçürülməsindən bəhs edib.

Spiker vurğulayıb ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində baş verən konstruktiv proseslər təkcə region üçün deyil, həm də dünya təhlükəsizliyi arxitekturası və beynəlxalq hüquq baxımından çox mühümdür.

Marına Qonçaruk deyib: "Ermənilərin sıxışdırılması haqqında manipulyasiya və cidd-cəhdlə yayılan yanlış məlumatlar həqiqətə uyğun deyil. Onlar bu gün Azərbaycanın Qarabağ regionunda baş verən tarixi əhəmiyyətli və ədalətli proseslərin qarşısını almaq məqsədi daşıyır. Axı Azərbaycan təkcə etnik azərbaycanlıların vətəni deyil, həm də udinlər, talışlar, avarlar, tatlar, ləzgilər və başqa xalqlar özlərini Azərbaycan millətinin bir hissəsi hesab edirlər. Onlar mədəni və etnik kimliklərini qoruyub saxlamaq üçün bütün imkan və şəraitə malikdirlər. Azərbaycanın ərazisində Qafqaz Albaniyasının məbədləri (ermənilərin öz adlarına çıxmaq istədikləri irs abidələri) qorunub saxlanılıb və bu qədim dövlətin qəbilə ittifaqına daxil olan bəzi xalqlar bu günədək xristianlığı yaşadıblar. Azərbaycanda, həmçinin qədim yəhudi icması var və bütün bunlar müxtəlif etnos və dinlərin nümayəndələri üçün bərabər imkanların olmasından xəbər verir".

Sözlərinə yekun vuran jurnalist qeyd edib ki, Azərbaycanın suverenliyinin tam bərpası və qanunsuz erməni hərbi birləşmələri üzərində qazanılan Qələbə bütün regiona rifah, sülh və sabitlik gətirəcək, habelə başqa ölkələr üçün də yaxşı nümunə olacaq.



# Müdrik Lider, Qalib Sərkərdə

## Azərbaycan xalqı 20 il öncə Cənab İlham Əliyevi Prezident seçməklə sülhün, tərəqqinin, inkişafın, əmin-amanlığın və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi



***Eldar İbrahimov, Milli Məclisin İntizam Komissiyasının sədri, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü***

Mövcud reallıq ondan ibarətdir ki, dövlətlərin qurulması və inkişaf etdirilməsi xalqın arasından çıxan və məqsədlərə doğru inamlı mübarizə aparan liderdən asılıdır. 1990-1993-cü illərdə ölkəmiz dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi vaxtda Azərbaycanda müdrik, idarəetmədə zəngin təcrübəsi olan, xalqı arxasınca aparmağa qadir bir şəxsiyyətə böyük ehtiyac yaranmışdı. Belə bir şəxsiyyət yalnız və yalnız xalqımızın böyük oğlu Ulu Öndər Heydər Əliyev idi. Dahi Öndərimiz Heydər Əliyev xalqın təkidli tələbi və xahişi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişindən sonra xalqın ondan gözlədiyi işləri reallaşdırdı, ictimai-siyasi sabitlik yaratdı, tənəzzülə uğrayan iqtisadiyyatı dirçəltdi. Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə müstəqil Azərbaycanın dünya standartlarına uyğun ilk Konstitusiyası hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuşdur. Qısa müddət ərzində Azərbaycan 150-dən artıq ölkə ilə diplomatik əlaqələr yaradıldı. Ölkəmizdə 82 xarici dövlətin səfirlikləri fəaliyyətə başladı. Bunların 26-sı bilavasitə Bakıda, 56-sı isə həmin dövlətlərin qonşu ölkələrdəki səfirliklərində akkreditə olundu. Öz növbəsində, Azərbaycanın 29 xarici ölkədə səfirlik, baş konsulluq və daimi nümayəndəliklərinin fəaliyyətə başlaması üçün yüksək səviyyədə şərait yaradıldı. Görülən və əsası qoyulan fundamental işlərə əsasən, demək olar ki, Ulu Öndər Heydər Əliyevin çoxcəhətli zəngin təcrübəsi böyük bir sərvətdir. Dahi Öndərin dövlət idarəçiliyi sahəsində yaratdığı bu zəngin xəzinə, Azərbaycan dövlətçiliyi tarixində əbədi olaraq qalacaq. Bu gün Dahi Öndərimiz Heydər Əliyevin xilaskarlıq missiyası Onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfində uğurla həyata keçirilir. 2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyev xalqa müraciət ilə əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Seçkilərdə xalq Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin davam etdirilməsinə səs verdi. Dahi Öndərimizin ən layiqli siyasi varisi Cənab İlham Əliyev xalqın 76,84 faiz səsini qazanaraq ölkə Prezidenti seçildi. Prezident İlham Əliyev andiçmə mərasimində demişdir: "Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanıb. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir".

### 20 ilin nəticələri göz önündədir

Azərbaycan xalqı 20 il öncə Cənab İlham Əliyevi prezident seçməklə sülhün, tərəqqinin, inkişafın, əmin-amanlığın və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi. Cənab İlham Əliyevin Prezident kimi Azərbaycana rəhbərlik etdiyi 20 il ərzində ölkəmizdə bütün sahələrdə sürətli inkişafa nail olunub, insanların sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb. Birmənalı şəkildə demək olar ki, regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur, bu, danılmaz aksiomadır: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik". Son 20 il də Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib. Əhalinin sosial vəziyyətinin yaxşılaşması isə davamlı xarakter daşıyır. Vaxtaşırı olaraq şəhid ailələrinin, qazilərin mənzil, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Şəhid ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə aylıq sosial ödəniş təyin olunması, 3 565 şəxsə sığorta ödənişinin edilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının götəricisidir. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Ötən dövr ərzində şəhid ailələrinə və qazilərə 13560 mənzil və fərdi ev verilib. Qazilər avtomobillərlə təmin olunub, xarici ölkələrdə müalicə və müayinələri təmin edilib.

### Əməli fəaliyyəti ilə tarix yazan lider

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ümummilli Lider Heydər Əliyev irsini qətiyyətlə davam etdirərək, Qarabağ problemini birdəfəlik həll etdi, ata vəsiyyətini, xalqına vermiş olduğu vədini yerini yetirərək, tarix yazan lider olduğunu nümayiş etdirdi. Bu gün bütün dünya Prezident İlham Əliyevin verdiyi sözlərə istisnasız əməl edən, sözü ilə əməlinin üst-üstə düşən, sözünün dəyərli və keçərli olduğunu görən böyük siyasi xadim kimi tanıyır. 20 il bundan əvvəl prezident seçkilərində Cənab İlham Əliyev doğma xalqıma müraciət edərək söz vermişdir ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək və Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq.

Sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində qələbə ilə başa çatdı. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq 8 noyabr Zəfər Günümüz gələcək bütün tariximizdə daim yaşayacaq. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!". Bu fikirləri ilə Prezident İlham Əliyev bir daha Ulu Öndərimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin "torpaqlarımızın işğaldan azad edilməsi" vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir. Bu qələbə xalq-iqtidar birliyinin nəticəsidir. Bu, "Qarabağ Azərbaycandır və nida" deyən Qalib Sərkərdəmizin "Dəmir yumruq" siyasəti ilə güclü Ordumuzun 44 gün ərzində qazandığı Qələbə Zəferidir. 8 noyabr Zəfər Günü - 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

### Xankəndidə ucalan bayrağımız möhtəşəm qələbənin tərənnümüdür

Oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev üçrəngli Bayrağımızı ucaltdı. Prezidentimiz Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində demişdir: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək".

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev xalqa müraciətində güclü və qüdrətli ordu yaratmaqla sülhün və təhlükəsizliyin təmin olunmasına nail olunduğunu bildirdi: "Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik".

Hazırda Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzuran quruculuq salnaməsini yaradır. Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün daha 5 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Artıq həmin vəsaitin 80 faizə yaxını istifadə olunub. Bütövlükdə isə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işlərinə, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək. Bu da Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işlərin sürətlə həyata keçirilməsinə dəlalət edir. Görülən və həyata keçirilən işlərin nəticəsi olaraq keçmiş məcburi köçkün ailələrinin azad edilmiş ərazilərə təhlükəsiz və etibarlı şəkildə geri qayıdışına başlayıb. İnsanlarımız Füzuliyə, Laçına qayıdırlar. Zəngilan rayonun Ağalı kəndində də sürətlə görülən işlər bu kəndin sakinlərini qoynuna aldı. Ağalı kəndinə əhalinin köçürülməsindən sonra Talış kəndinə köç başladı. Daha bir möhtəşəm qələbə isə sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror xarakterli tədbirlərindən sonra Qarabağdakı separatçıların tamamilə məhv edilməsi oldu. Artıq separatçılardan Arayik, Vardanyan, Qukasyan, Saakyan və digərləri həbs edilərək istintaq orqanlarına təhvil veriliblər. Söz yox ki, onlar layiq olduqları cəzanı alacaqlar. Biz isə Qalib Sərkərdə, Prezident İlham Əliyevin dediyi kimi əbədi olaraq Xankəndidə, Xocalıda, Şuşada, Ağdərədə, Kəlbəcərdə və digər ərazilərdə yaşayacağıq.

# Qərb ilə Rusiya arasında qalan Ermənistan

# TARİXİ SEÇİM QARŞISINDA











Qərbi demokratik hesab edərək, dəstək gözləyən Ermənistan çoxdandır ki, Rusiya ilə digər qütb arasında qalıb. Hələ də tərəddüd içərisində olan ermənilər Qərbə istiqamət götürmək arzularını və niyyətlərini açıq şəkildə ifadə etsələr də hələki ortada heç bir nəticə görünmür. Rusiyanın dəstəyindən məhrum olmaq, bu fonda üstəlik çətin durumda Qərbin də köməyə yetişməyəcəyi qorxusu hayların kürkünə birə salıb. Ona görə ki, müstəqil şəkildə, suveren bir ölkə kimi hələ də Ermənistanın qətiyyən özünə güvəni yoxdur və ermənilərin qorxuları da, belə qərarsız olmaları da bu baxımdan anlaşılandır, amma artıq seçim etmək məcburiyyətindədirlər və heç şübhəsiz ki, tarixi seçim qarşısındadırlar. Bu vəziyyət hətta iki yolun astanası təəssüratı bağışlayır, amma hər halda iki stulda oturmaq vaxtının bitdiyini kənardan müşahidə edənlər belə açıq-aşkar görürlər.

Azərbaycanın Qarabağ iqtisadi rayonundan köç edən və İrəvanın mərkəzində aksiya keçirib hay-küy qoparan haylar da artıq Rusiya sülhməramlılarına qətiyyən güvənmədiklərini deyirlər. Onlar hətta Qarabağda rus sülhməramlılarının nəzarəti altında yaşamağa razı olmadıqlarını açıq şəkildə bildirirlər və yaşadıqları ərazilərə yalnız Qərbin sülhməramlılarının nəzarətində olmaq şərti ilə qayıda biləcəklərini deyirlər. Əslində, bu mənzərə onu deməyə əsas verir ki, təkcə Ermənistan hakimiyyəti deyil, Qarabağdan köç edən erməni əsillilər də, ümumilikdə erməni cəmiyyəti də Rusiyaya, ruslara qarşıdırlar. Nəzərə alsaq ki, Ermənistanda vəziyyət getgedə daha da gərginləşir, deməli, anri-Rusiya əhval-ruhiyyəsi hələ bundan sonra özünün pik nöqtəsinə doğru artacaq və bu artım fonunda da ruslarla münasibətlərin qətiyyən normallaşacağı qənaətinə gəlmək, rəsmi Moskva ilə İrəvan arasında uçurumun dərinləşməyəcəyini söyləmək mümkün deyil. Əksinə, hadisələrin gedişi onu deməyə əsas verir ki, Ermənistan ictimaiyyəti də, hakimiyyəti də Qərbə üz tutmaq arzusunda və niyyətindədir. Amma bu niyyətlərinin onlara nəyin bahasına başa gələcəyini hər halda zaman göstərəcək, bununla belə yaxşı heç bir proqnoz haqqında danışmaq mümkün deyil. Çünki bu işğalçı ölkənin bir-birinin ardınca buraxdığı səhvlər heç bir nikbin proqnoz vəd etmir.



Özlərini məzlum, yazıq göstərib dünyadan on milyonlarla avro yardım dilənən Ermənistan hakimiyyətinin Qarabağdan köç edən ermənilərə verdiyi çəmi 75 min dram pul isə heç bir aylıq kirayələri üçün yetərli olmadığından işğalçı ölkədə böyük narazılıqlar yaranıb. Hətta öz uydurma, yalançı statistik rəqəmləri ilə də hesablasaq, Qarabağı tərk edib Ermənistana üz tutanlara verilən pul, Paşinyan hökümətinin dilənərək aldığı iyanələrin miqdarı ilə müqaisəyə belə gəlməyəcək dərəcədə, dəfələrlə azdır. Deməli, belə çıxır ki, köçkün problemi adı altında diləndikləri vəsaitləri Ermənistan hakimiyyəti özü mənimsəyir və nə ehtiyacı olanları, nə də iyanə aldığı ölkələri heç vecinə də almır. Təəccüblüdür ki, belə bir ölkə, ələlxüsus iyanələri mənimsəyən bir hakimiyyət Qərbin gözündə necə demokratik görünə bilər? Doğrudur, bu tamamilə başqa bir müzakirə mövzusu kimi görünə bilər, amma əslində bu, haqqında söz açılan mövzuya da birbaşa aidiyyəti olan məqamdır. Çünki ayırdıqları iyanələri, yardımları vətəndaşlarına paylamayıb özü mənimsəyən bir hakimiyyət, ermənilərin gözündə demokratik görünən Qərb tərəfindən heç də xoş qarşılanmamalıdır. Ən azından, Ermənistan hakimiyyətinin onları aldatdığı, mənimsəmə faktı hansısa formada xoşa gəlməməlidir. Daha bir sual doğuran məqam isə odur ki, əgər həqiqətən də həmin o Qərb demokratikdirsə, xalq üçün, ehtiyacı olanlar üçün ayrılan yardımları mənimsəyən hakimiyyəti, dövləti niyə demoktarik hesab edir? Həqiqətən də çox maraqlı, çox müəmmalıdır, amma görünür elə Qərb də Ermənistan kimi demokratik imiş ki, taylı tayını tapmış olub...

Təəccüb doğuran məqamlardan biri də odur ki, ruslara "təpik atan", Rusiyanı görməyə gözü olmayan, amma dolanışıqları belə məhz Rusiyadan asılı olan ermənilər indi şimal qonşularından başqa daha bir himayədarlarına arxalana bilmədikləri qənaətinə gəliblər. Son zamanlar Bakı ilə Tehran arasında münasibətlərin istiləşməsi tendensiyası hayları tamamilə qıcıqlandırıb. Sual oluna bilər ki, axı bir-birilərini qardaş qədər yaxın saydıqlarından niyə belə narazıdırlar? Bunların bir-birinə olan etibarı bu qədər imiş? Əlbəttə ki, İran indi də olmasa, nə vaxtsa Ermənistanla deyil, məhz Azərbaycanla əlaqələrin, münasibətlərin məqsədəuyğun olduğu qənaətinə gəlməlidir, başqa cür təsəvvür etmək mümkün də deyil. Çünki miflərə, uydurmalara, yalanlara yox, həqiqətlərə inanmağın daha doğru olduğu qənaətinə gəlinəcəyi qaçılmazdır. Reallıq, həqiqət məhz bundan ibarətdir və bəlkə də artıq bu reallığı İran qəbul etməyə başlayıb. Amma hər halda reallıqlar və bu reallıqların fonunda Tehranın da Bakı ilə münasibətlərə get-gedə üstünlük verəcəyi məntiqi haylar üçün qırmızı işıq kimi görünür. Elə buna görə də açıq-aşkar deyirlər ki, təkcə Rusiyaya deyil, elə İrana da güvənmirlər və bu zaman yeganə ümid yerləri ABŞ və Avropa İttifaqı olaraq görülür.

Ümid etmək, yaxud güvənməklə ermənilərin tələbi arasında böyük fərq, hətta dərin uçurum var. Qərbin dəstəyinə ümid etmək, güvənmək yox, onlardan bu dəstəyi tələb etmək həyasızlığı haylar üçün adi hal sayılır. Sanki Qərb ölkələrinin, eləcə də Avropa İttifaqının onlara heç bir faydası olmayan, özü də səfalət içərisində olan bir ölkəyə yardım etmək, dəstək vermək kimi bir borcları var. Nəyə görə onları özlərinə borclu bildiklərini isə ermənilərdən başqa kimsə izah edə bilməz. Ermənilərin isə izahı odur ki, onlar guya demokratiya yolunu tutublar və buna görə də bütün dünya onlara borclu sayılır və bu izah sözsüz ki, ancaq erməni təfəkkürünün məhsulu ola bilər. Əvvəla, Ermənistanla demokratiya yolu arasında olan uçurumun heç dibi belə görünmür və öz siyasi rəqiblərini həbs etdirən erməni baş nazir Nikol Paşinyanın və onun hakimiyyət komandasının demokratiyadan danışmağa belə haqqı yoxdur. Digər tərəfdən, əgər demokratik ölkə olmaqla bocluluq tələbi irəli sürülürsə, onda gərək Azərbaycan Qərbi də Avropa İttifaqını da çoxdan özünə borclu qələmə verməli idi. Eyni zamanda İrəvan hələ də dərk edə bilmir ki, bir ölkə demokratiya yolunu öz gələcəyi naminə seçir, kimləri isə özünə borclu göstərmək üçün yox. Məhz bunu Qərb, eləcə də Avropa İttifaqı vaxtından rəsmi İrəvana qandırsaydı, indi belə bir xam xəyala düşüb onları borclu tutmazdılar.

Daha bir diqqət çəkən məqam Qərbin də, Avropa İttifaqının da bu demokratiya oyunlarının hələ davam etməsinə könüllü şəkildə razılığıdır. Dünyanın istənilən ölkəsinə Qərb məhz demokratiya oyunu ilə girir. Bunu, məsələn, Gürcüstanın və Ukraynanın timsalında gördük. Onu da gördük ki, həmin demokratiya nəticə etibarı ilə misal üçün, qeyd olunan ölkələrə "nəyin bahasına" başa gəldi. Hər bir ölkə demokratiya yolunu hansısa qüvvələrin, hansısa ölkələrin "verbofkası" ilə yox, özü seçməlidir və bu seçimə görə nə həmin ölkələrin marionetinə çevrilməməlidir, nə də bu seçikmə görə kimləri isə borclu bilməməlidir. Amma ermənilər demokratiya adlı oyunun alətinə çevrildiyi üçün həm Qərbin marioneti olaraq görünür, həm də buna görə elə zənn edir ki, kimlərsə onlara borcludur. Əslində isə, nə Ermənistan qarşısında heç bir öhdəlik götürülməyib, nə də hansısa bir bircdan söhbət belə gedə bilməz və ermənilər özləri özlərini aldadırlar. Bu isə o deməkdir ki, hansısa problemlər və bu problemlər qarşısında aciz vəziyyətə düşmək kimi bir risk daim var. Bu baxımdan da indi hayların hansı seçim qarşısında qadıqlarını özləri hamıdan daha yaxşı bilməlidirlər. Bilməlidirlər ki, Qərb də, İran da onlara borclu deyil və istənilən vəziyyətə görə cavabdehliyi özləri daşıyırlar.

Haylar bilməlidirlər ki, onlara verilən vədlərlə mövcud durum arasında, yəni sözlə əməl arasında böyük uçurum var. İndi hansısa ölkəyə güvənərək, arxalanaraq, kimlərinsə siyasətinə alət olmaq çox böyük, geosiyasi səhv ola bilər. Vaşinqton, Paris, yaxud da Brüsselə arxalanaraq, onların istədikləri kimi siyasət yürütmək Ermənistan üçün heç də hansısa yaxşı nəricələr vəd etmir. Hətta demək olar ki, bu, Ermənistan dövlət üçün taleyüklü ağır nəticələrə səbəb olar. Hər bir halda, ən azından yenə də seçim ermənilərin, Ermənistan dövlətinin öz ixtiyarındadır. Amma haylar hansısa bir yolu tutmalı, həmin yolla getməlidirlər və bunu artıq Qərb də Rusiya da kəskin şəkildə tələb edir, hətta gözləyir də. Yəni, bundan sonra ermənilərin bu vaxta qədər etdikləri kimi, iki stulda oturmaq şansı olmayacaq.

***İnam Hacıyev***

Təhlil

# “Deyirdi, ana, bircə arzum var ki, mən səndən qabaq ölüm”

## *ŞƏHİD AİLƏSİ İLƏ MÜSAHİBƏ*

**Azərbaycan Silahlı Qüvvələrinin giziri, Vətən müharibəsi şəhidi Azad Nizami oğlu Yolçuyevin ailəsinin SİA-ya verdiyi müsahbəsini təqdim edirik:**



Anası Ofelya Carçıyeva:

***- İlk olaraq, şəhidimiz haqqında ümumi məlumat verməyinizi xahiş edəcəm. Daha sonra ətraflı şəkildə suallara keçid edək.***

- Oğlum 1985-ci ildə Ağstafa rayonunun Kolayır kəndində anadan olub. O, 4 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 35 yaşı var idi. Hər işə gedəndə mənlə öpüşüb görüşüb gedərdi. Son dəfə isə, xüsusilə, bərk qucaqladı. Azad çox uğurlu idi. Onun respublikada kəşfiyyat yarışlarında qrupu birinci oldu. Müdafiə naziri cənab Zakir Həsənov bu münasibətlə Azada medalı təqdim etmişdi. İşinə çox bağlı oğul idi və işindən bir dəqiqə ayrı qala bilmirdi.

***- Azadın hansı hobbiləri var idi?***













- Uşaqlığından daima idmanla məşğul olar və burada bir çox nailiyyətlər əldə edərdi. Üzümüzü hər zaman ağ edib.

***- Hansı xatirələrinizi xatırlayırsınız?***

- Hər yarışdan gələndə gülürdü. Deyirdim, oğul, yarış necə keçdi? Cavabında ”Ay ana, sənin oğlun həmişə birinci yerə çıxacaq. Elə indi də birinci yerə çıxdım”, - deyərdi. Mən dinib danışmayan kimi gəlirdi ki, ay ana, sənin xətinə kim dəyib? Deyirdim, ay oğul, heç kim, mənə kim nə edəsidir. O qədər xatirələrimiz var ki...

***- Müharibəyə yollandıqdan sonra danışırdınız?***

- Ara-sıra danışırdıq. Deyirdim, ay oğul, ermənilər müxənnətdir, ehtiyatlı ol. Dedi, ay ana, narahat olma, nəfəslərini kəsmişik, bir şey qalmayıb. Sən demə, Kəlbəcəri keçərkən yaralanıbmış. Bir həftə xəstəxanada qalıb bizə deməmişdi.

Danışanda deyirdi, özünüzə yaxşı baxın, hər şey yaxşı olacaq, oğul vətən üçündür. Dedim, düz deyirsən, amma anaya da oğul lazımdır. Vətəndən ötrü canını verən oğul idi. Elə belə də etdi. Deyirdi, ermənilər bizi vuranda da vuracaq, mən generaldan artıq deyiləm ki.




***- Şəhid olması xəbərini necə aldınız?***

- 2020-ci il noyabrın 3-ü günü digər oğlum evə gəldi. Sən demə, Azad şəhid olubmuş. Xəbəri alanda elə bildim belim qırıldı, ay qızım.

Azad həmişə deyirdi ki, ana, bircə arzum var ki, mən səndən qabaq ölüm. Deyirdim, ay oğul, belə danışma, ana ölər, bala onu dəfn edər. Allah bütün şəhidlərimizə rəhmət etsin. Onların hamısının yeri cənnətdir.

***- Şəhid anaları ilə əlaqəniz varmı?***

- Sıx-sıx birlikdə tədbirlərdə oluruq. Hər kəs orada öz şəhidi haqqında danışır. Bu zaman belə bir fikir yaranır ki, sanki bütün şəhidləri bir ana doğub. Çünki hər birinin həm siması, həm də xarakterləri bir-birinə çox bənzəyir.

***- Azadın xatirəsinin hansı formada əbədiləşdirilməsini istəyərdiniz?***

- Ağstafanın Korayıl kəndində bir məktəb var. İstəyərdim bu məktəb Azadın adını daşısın. Bu barədə müraciət etmişik.



Qayınatası İlham Nəbiyev:

***- Kürəkən olaraq Azaddan razı idinizmi?***

- Çox tərbiyəli, mərifətli və böyük-kiçik bilən oğlan idi. Utandığından mənlə bir stola oturmurdu. Uşağı ilə çox az vaxt keçirə bildi. Çox üzülürük.

Həyat yoldaşı Ləman Nəbiyeva:

***- Azadla necə tanış olmusunuz?***

- Anələrımız birlikdə işləyirdi. Biz də bu vəsilə ilə görücü üsulu tanış olduq. Amma özümüz də bir-birimizi çox sevdik. İki il nişanlı qalmışıq.

***- Neçə övladınız var?***

- Bir qız, bir oğlan olmaqla iki övladımız var. Qızımın bu il 3, oğlumun isə 5 yaşı tamam oldu.

***- Uşaqların adlarına necə qərar verimisiniz?***

- Oğlum Nizamiyə qayınatamın adını qoymuşuq. Həbibə isə Azadın nənəsinin adıdır. Nənəsi vəsiyyət etmişdi ki, Azadın qızına mənim adımı qoyarsınız.

***- Azad övladlarını görə bildi?***

- Müharibə başlayan günü Nizaminin 2 yaşı tamam olmuşdu. Həbibə isə cəmi 2 aylıq idi. Həbibə müharibə vaxtı doğulmuşdu. Həbibəni xəstəxanada gəlib gördü. Döyüşlərdə Azadın ciyərlərinə möhkəm soyuq olduğu üçün bir müddət xəstəxanada yatdı. Demək olar ki, qızını heç görə bilmədi. Ümumi hesablasaq bu 2 ayda qızını 10 gün gördü, ya görmədi. Şəhid olduqdan sonra eşitdim orada olarkən deyirmiş ki, müharibə tez bitsəydi, gedib qızımı görərdim.

***- Yenidən Azadı tanımaq şansınız olsa, onunla evlənərdinizmi?***

- Əlbəttə, evlənərdim. Çünki Azad çox fərqli biri idi. O mənə həyat yoldaşı olmaqla yanaşı, yaxın dost idi.

***- Uşaqlarına münasibətdə necə idi?***

- Çox ailəcanlı idi. Uşaqlara qarşı da çox mehriban olub. Oğlumla bir-birinə çox bağlı idilər.

***- Uşaqlar atalarının şəhid olmasını bilir? Bunu onlara necə izah etmisiniz?***

- Oğlum bilir. Əslində, izah etməmişik. Özləri hər şeyi başa düşür. Məncə, bilirlər ki, ataları bir daha gəlməyəcək. Bəzən ”Atam haradadır?”, ”Nə zaman gələcək?” deyə suallar verirlər. Qızım Həbibə 3 yaşına qədər atası haqqında heç nə danışmayıb. Amma bu yaxınlarda atasını yuxuda gördüyünü dedi. Oyanandan sonra dedi ki, bilirsiniz, ata gəldi və mənimlə oynadı. Məncə, onda ataya qarşı sevgi bu zaman yaranmağa başladı.

***- Ailəniz sizə dəstək olurmu?***

- Bəli, olur. Atam mənimlə birgə yaşayır. Anam isə rayonda qardaşımla yaşayır.

***- Azadın ailəsi ilə münasibətiniz necədir?***

- Həm qayınanam-qayınatam, həm də Azadın digər qohumları ilə aramız çox yaxşıdır. Çalışırıq o varmış kimi həyatımıza davam edək.

***- Bu illərdə heç yuxunuza gəlib?***

- Bəli, gəlib. Yuxuda küsmüşdük və könlümü alırdı.

***Ayşən Vəli***

# "Qarabağ" dastanının "Qubadlı" boyu







Qədim qalaları, türbələri, mağaraları, körpüləri ilə tarixin özüdür Qubadlı. Əsrlərin o üzündən boylanan, qədimdən qədim tarixi, gözəllikləri-dağları, dərələri, meşələri, fauna və florası, çayları, təbii zənginliyi ilə şiş dağları, əraziləri, sıldırım qayaları, bu qayaların sinəsinə pərçimlənmiş evləri, yetirdiyi-bitirdiyi nemətləri ilə bir başqadır Qubadlı. Bu qədim yurdun gözəlliklərinə üç illik Zəfəri-azadlığı isə daha bir füsunkarlıq qatır... Günün mübarək, Qubadlı!

## Ali Baş Komandandan Qubadlı xəbəri

2020-ci il oktyabrın 26-sı Azərbaycan tarixinin növbəti şanlı səhifəsinə çevrildi. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa müraciəti yenə də işğaldan azad edilən ərazilərimizin xoş müjdəsi ilə bitdi: "İndi Azərbaycan xalqının səbirsizliklə gözlədiyi siyahıları böyük məmnuniyyət və qürur hissi ilə xalqımın diqqətinə çatdıracağam. Beləliklə, dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri!

Dünən mən artıq bu barədə Azərbaycan xalqına bu sevincli xəbəri verdim. Bir daha bu şad xəbəri bütün Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan, Cəbrayıl, Qubadlı rayonunun sakinlərinə, bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir. Düzdür, o kəndlərdən bir şey qalmayıb. Eybi yoxdur, bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Ali Baş Komandan, Prezident cənab İlham Əliyev həmin gün Qubadlı şəhəri və Qubadlı rayonunun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi də təbrik etdi. Dövlətimizin başçısı onlara Vətən uğrunda gedən döyüşlərdə yeni uğurlar arzuladı. Təbrik və təşəkkürlərinin bütün şəxsi heyətə çatdırılmasını tapşırdı.

## Əsrlərin o üzündən boylanan QUBADLI

IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, Muradxanlı kəndindəki V əsrə aid "Qalalı", Əliquluuşağı kəndindəki "Göyqala" abidələri, XIV əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Yazı düzündəki "Cavanşir" türbəsi, Hacı Bədəl, Laləzar körpüləri, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr, Gürcülü kəndində olan XVII əsrə aid türbə, XVIII əsrə aid Xocamsaxlı kəndində olan türbə, ərazisində inşa olunan yaşı bir əsrdən artıq ilk dünyəvi məktəb Qubadlının qədim tarixindən danışır. Bu yurdun elm, mədəniyyət mərkəzlərindən, tarixi-dini abidələrindən, insanların ibadətindən, xüsusi maraq doğuran "Qubadlı" toponiminin mənşəyindən söhbət açır.

Tarix danışır, Qubadlının 1993-cü ildə işğalı ərəfəsində rayona çox yaxın yerdə, Hacılı kəndi yaxınlığında bir qazıntı yerində Sasani şahı Qubadın (488-531) adından zərb edilmiş 60-a qədər gümüş sikkə nümunələrinin tapıldığını, dəfinənin olduğu küpün hündürlüyünün 10,5, oturacağının diametrinin 6,5 santimetr olduğundan söhbət açır. Tarixçilər sübut edir ki, bu sikkələr 521-522-ci illərdə kəsilmişdir. Qubadlı adının mənşəyi tarixi mənbələrə əsasən I Qubadın adı ilə bağlı olsa da, yaşayış məskəni kimi lap qədim dövrlərə gedib çıxır. Tədqiqatçıların araşdırmalarında Qubadlı əvvəllər Azərbaycanın şimalında mövcud olan Albaniyanın tərkibində olduğundan, sonra ərəb xilafətinin əsarəti altına düşdüyündən, xilafətin süqutundan sonra, IX-X əsrlərdə Sasanilərin, X əsrdə Sacilərin, XI-XII əsrlərdə Şəddadilərin, XII-XIII əsrlərdə Atabəylər-Eldəgizlərin, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil edildiyindən danışır. Bu tarix qərbdən 120 kilometr məsafədə Ermənistanla, şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Cəbrayıl rayonları ilə həmsərhəd olan Qubadlının Azərbaycanın qədim yaşayış məskənlərindən olduğunu hər daşı, qayası, bu torpağın hər qarışı ilə sübut edir.

## Qubadlı şəhəri Qubadlının açarıdır

Qubadlı haqqında bir yazıda oxuyuram: "Palıd bu meşələrin arxası, vələs dövləti, alma, armud, fındıq, əzgil, zoğal, yemişan... sərvəti, dağ çayları, şəlalələr, buz bulaqlar şöhrəti, qara gözlü əliklər, xınalı kəkliklər, qırqovullar, turaclar, göyərçinlər... gözəlliyi idi". Bu yazı o vaxt yazılmışdı ki, rayonun olduqca gözəl təbiətinin yetirdiyi meşələr ermənilər tərəfindən qırılaraq Ermənistana və ya xarici ölkələrə daşınırdı. Bu, müəllifin yanğısı idi, dağıdılan meşələr fonunda Qubadlının gözəlliklərinin ürək yanğısı ilə vəsfi idi. Sanki bu gözəl məkana bir təəssüf hissi idi o cümlələr...

2020-ci ilin 25 oktyabrında Qubadlının işğaldan azad edildiyi gün isə mən yazırdım: əziz müəllif, artıq "idi"lər arxada qaldı. Qubadlı şəhəri bütün rayonun açarıdır ki, o açarı da milli ordumuzun qəhrəman əsgər və zabitləri əldə ediblər. Bu, bir möcüzədir. Qədim Azərbaycan nağıllarında divin əlindən igidimiz tərəfindən padşahın qızının alınması kimi... Məmləkətə gələn suyun qarşısını kəsən əjdahanın igid oğlan tərəfindən öldürülüb suyun qarşısını açması kimi... Qubadlının-bu gözəlliklər məkanının açarı da 30 il ərzində bu əzəli, həm də strateji əhəmiyyətli torpağımızda keçilməz barrikadalar yaratmış ermənilərin əlindən alındı. Bu açar inzibati bölgüsünə 1 şəhər, 93 kəndin aid olduğu Qubadlının yaxın günlərdə işğaldan tamamilə azad olunacağının rəmzidir.

2023-cü il, 25 oktyabr: o zaman elə düşündüyümüz kimi də oldu. Qubadlı tamamilə erməni işğalçılarından azad edildi. Budur, üç ildir ki, həmin Zəfərin sevincini, qürurunu yaşayırıq.

## Gözəlliklər məkanı yurd yeri

Uzun illər sonra bu gözəl məkanın illərdən bəri susan iki böyük dağ çayı- Həkəri və Bərgüşad çağladı. Öz mənbəyini Kəlbəcərdən götürən, Araza qovuşana kimi bir çox dağ çaylarına da qoyun açan, illərdir suları həm Kəlbəcərin, həm Qubadlının göz yaşı olan Həkərinin, mənbəyi Ərikli dağlarından başlayan Bərgüşadın suları göz yaşından arındı. Dağ bulaqlarından süzülüb gələn sulardan, Dəli çaydan, Şəki çaydan, Sisyan, Taxtakörpü çayı, Daşlı dərə, Bəxtiyarlı, Ağa çaylarından güc alan Bərgüşad və Həkəri Qaralar kəndinin yaxınlığında birləşib Araza qovuşdu.






Axı onlar da bu yurdun insanları kimi məskənlərindən dərbədər edilmişdi. İnsanların taleyinə qaçqınlıq, köçkünlük yazıldığı kimi, çayların da axınının səmti dəyişdirilmişdi. Qubadlılılar illərlə Vətəninin ayrı-ayrı yerlərində yurd həsrətlilərinə çevrildikləri kimi, Qubadlının çayları, bulaqları, meşələri, ağacları, bitkiləri öz yurdlarında qəribçilik ömrü yaşamağa məhkum olunmuşdular. Hələ üstəlik meşələr düşmən əli ilə Vətəndən kənara çıxarıldı, bitkilərin kökü kəsilərək Qubadlıya həsrət qaldı, çaylar öz məhvərindən çıxarıldı.

İqlimi əsasən mülayim isti və quru subtropik olan rayonun bir hissəsi aran olsa da, əsas hissəsi dağlıqdır. Buradakı 13,2 min hektar meşə sahəsi dağlıq yerləri öz örtüyünə bürümüşdür. Hərtiz və Səngər dağlarındakı şəfalı bulaqlar can dərmanıdır. Qubadlılılar taxılçılıq, tütünçülük, baramaçılıq, üzümçülük və heyvandarlıqla məşğul olurdular. Yaxın gələcəkdə-qubadlılıların yurdlarına gönməleri onların həm öz ömrünə, həm də torpaqlarına, təsərrüfatlarına yeni həyat gətirəcəkdir. Bu zəngin yurdun torpaqları taxıl zəmilərinə, üzüm, barama, tütün sahələrinə bürünəcək, dağlarının yamaclarından yenidən qoyun-quzunun, mal-qaranın səsi gələcəkdir. Çobanların neyindən süzülən "Qarabağ" şikəstəsi doğma səsə 30 illik təşnə yurdun bu həsrətini vüsala çevirəcəkdir.

Qubadlıda böyük işlənməmiş əqiq yatağı, mərmər karxanası da var idi, indi qalırsa əgər... Qalmasın heç, qoy gözüacılar, bu xalqın hesabına torpaq sahibi olanlar onları da aparmış, talamış, satmış olsunlar. Təki torpağımız azad olsun. Çünki Azərbaycan xalqı üçün torpaqdan qiymətli heç nə yoxdur.

### Bu yurd Əliyar, Şükür, Nəbi yurdudur

Bu yurd 1992-ci ilin iyun ayının 24-də Qubadlı rayon mərkəzini bombalamağa uçan üç vertolyotu döyüşçüləri ilə vurub salan, avqust ayında həyata keçirilən "Şurnuxu" əməliyyatında iştirak edərək bir gün ərzində ermənilərin 80-dən çox canlı qüvvə və bir neçə texnikasını məhv edən, düşmənin Gorusun Şurnuxu kəndindəki postunu darmadağın edən, həmin ilin payızında 40 könüllü döyüşçü ilə birlikdə işğal altındakı Laçının 40-a qədər kəndini 4 gün ərzində ermənilərdən azad edən I Qarabağ müharibəsi iştirakçısı, milli qəhrəman Əliyar Əliyevin yurdudur.

Bu yurd "Burada ermənilərə yaxşı dərs verdik. Düşmən çaşğınlıq içərisində idi, başlarını itirmişdilər. Ermənilər Lələ təpə istiqamətindəki ərazini "Ohanyan səddi" adlandırırdılar. Onlar hesab edirdilər ki, burada möhkəmləniblər və guya bura keçilməz idi. Amma döyüşçülərimiz bu həddi göz qırpımında keçdilər. 40 dəqiqə ərzində bizim hərbçilərimiz həmin ərazini azad etdilər. Bir saatın sonunda həmin təpədə bayrağımız dalğalanırdı. Bütün istiqamətlərdə düşmən pərakəndə şəkildə qaçırdı." Düşmən yaxşı döyüş aparsaydı, bu daha zövqlü olardı",- deyən qəhrəmanlığı ilə erməniləri qorxuya salan II Qarabağ müharibəsi iştirakçısı, Milli Qəhrəman, 23 oktyabr 2020-ci ildə Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Şükür Həmidovun yurdudur, XXI əsrin qəhrəmanlarının yurdudur.

Bu yurd vaxtilə çar hökumətinə, zülmkar mülkədarlara qarşı mübarizə aparan, bir də elə qonşuluqdakı erməniləri cızıqlarında saxlayan, Naxçıvan və Zəngəzur mahallarında qaçaqlıq edən Qaçaq Nəbinin yurdudur. 20 il çar hökumətinin məhv etməyə çalışdığı, lakin bacara bilmədiyi, başına topladığı igidlərlə insanların haqqı olanlarını ədalətə çevirən, Azərbaycan xalqının unudulmaz xalq qəhrəmanı Qaçaq Nəbi, Qoçaq Nəbi... Elimizin özü kimi mərd qızı Həcərlə hünər meydanında qoşa adımlayan, düşmənə bu Vətənin XIX əsr vətənpərvərlik nümunəsini sərgiləyən, adına dastanlar, nağıllar, şeirlər yazılan, hər bir azərbaycanlının qəlbində yaşayan Qaçaq Nəbinin yurdudur, Qubadlı. Yəqin ermənilər yaxşı xatırlayar:

*Nəbinin birçəyi oyma-oymadı,*
*Qırdı saldatları, birin qoymadı.*
*Bu davada Nəbi tufan eylədi,*
*Kazakları qırıb fiğan eylədi.*
*Burda Nəbi yenə bir ad eylədi,*
*Erməni Ginkuru bidad eylədi.*

Gələcəkdi Əliyarın, Şükürün, Nəbinin davamçıları bir gün bu Vətəni, bu yurdu erməni zorakılığından xilas etməyə. Bunu ki ermənilər yaxşı bilirdilər. Gəldilər də, üç il öncə onlara Suqovuşanda, Füzulidə, Cəbrayılda, Hadrutda, Zəngilanda, Kəlbəcərdə, Şuşada və Qubadlıda elə bir dərs verdilər ki, tarix durduqca xatırlayacaqlar.

***Mətanət Məmmədova***

***P.S. Ölkə başçısının "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" 24 noyabr 2020-ci il tarixli Sərəncamına müvafiq olaraq işğaldan azad edilmiş ərazilərdə, eləcə də Qubadlıda təmir-quruculuq işləri yüksək keyfiyyətlə icra olunur. Burada yol infrastrukturu, elektrik enerjisinin yüksək səviyyədə verilməsi üçün yarımstansiyar, şəhərin Baş Planına uyğun aparılan bütün bərpa-quruculuq işləri müasir tələblərə uyğun qurulur və "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, "yaşıl enerji" və "sıfır tullantı" konsepsiyalarına əsaslanır. Görülən bütün işlərin fonunda isə Qubadlıya yeni həyat verilir ki, o, sakinlərini tezliklə qoynuna alsın...***

## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabrın 24-də YAP Zərdab rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayonun Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.



Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonra keçirilən dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib.

## "Gürcüstan Azərbaycan və Ermənistan arasında vasitəçi olmağa hazırdır"



"Tbilisidə V beynəlxalq İpək yolu Forumu əslində növbəti forumlardan biridir. O cümlədən, bu beynəlxalq tədbirdə Azərbaycan da iştirak edir. Ermənistanın Baş Nazirinin də bu forumda iştirak etməsi təbiidir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.

Onun sözlərinə görə, əslində, bu gün Gürcüstan rəhbərliyi də ev sahibi olaraq Azərbaycan və Ermənistan arasında vasitəçi olmağa hazırdır: "Bu barədə Gürcüstanın Baş Naziri də xüsusi bəyanatla çıxış edib. Bu tədbir təqdirəlayiq bir hadisədir. Azərbaycanın dövlət başçısı da bu məsələdə Gürcüstana öz minnətdarlığını bildirib. Amma Ermənistan da buna razıdırmı? Ermənistan tərəfi də bunu istəyirmi? Azərbaycanın dövlət başçısı öz çıxışlarında dönə-dönə qeyd edir ki, Avropanın Ermənistan və Azərbaycan arasındakı münasibətlə bağlı öz maraqları var. Xüsusilə Fransanın maraqları haqqı-ədaləti aşıb. Bu gün Fransa Azərbaycan cəmiyyəti üçün nifrətlə yad olunan bir ölkədir. Çünki Fransa ermənidən daha çox ermənidir. Ermənistanın Baş Naziri Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu elan edir. Amma Fransa nəyin bahasına olursa-olsun, BMT səviyyəsində ermənilərin qeyd-şərtsiz Qarabağ ərazisində qorunması ilə bağlı sənəd qəbul etmək istəyirlər". Deputat sözlərinə davam edərək bildirib ki, Azərbaycan artıq 30 il ərzində Qərbin ikiüzlü siyasətini görüb: "Bu gün Qərb nə bəyanat verirsə-versin, Azərbaycan öz yolu ilə gedir. Tbilisideki V beynəlxalq İpək Yolu forumu da onu göstərir ki, Cənubi Qafqazda, o cümlədən, dünyada iqtisadi münasibətlərin çox inkişaf etməyi bütün xalqların marağındadır. Əgər Ermənistan bu tədbirdə Azərbaycanı ittiham edən bir bəyanatla çıxış edərsə, bu onun problemidir. Bu gün Azərbaycan öz haqq məsələsini ədalətlə həll etdikdən sonra böyük quruculuq işləri ilə məşğuldur".

***Ləman Sərraf****

# “İmkanım olsaydı, Xaçaturyana bir şillə vurardım”

**Dünən Xocalı rayonunun Meşəli kəndində soyqırımı törətməkdə ittiham olunanlardan biri - Vaqif Xaçaturyanın cinayət işi üzrə növbəti məhkəmə baxışı keçirilib. Məhkəmədə zərərçəkmişlər və şahidlər dindirilib. SİA mövzu ilə bağlı zərərçəkmişlərin təəssüratlarını öyrənib.**



**Meşəli sakini Teymur Salmanov:** ”Hadisə günü qardaşımla bir yerdəydik. Səhər saatlarında kəndi mühasirəyə almışdılar. Hər tərəfdən güllələri yağış kimi yağdırırdılar. Qaçmaq üçün bir yer yox idi. Ermənilər kəndin içinə dolmuşdu. Mənim 14 yaşım var idi. Vaqif Xaçaturyanın səsini öz qulağımla eşitmişəm.



TƏSSÜRATLAR

Hələ başqa biri də kənardan ”Vur, Vaqif, vur” deyirdi. Mən ayağımdan güllə yarası aldım. Qardaşımı da, məni də yaraladılar ki, heç yerə gedə bilməyək. Qardaşım məni qaçırtmasaydı, bizi öldürəcəkdilər. Bu yaşıma kimi əsa ilə gəzirəm. Mənim günahım nə idi axı?! Mənim 14 yaşlı sinif yoldaşım Vidadini öldürüb, daha sonra yandırdılar. Hakimlərdən xahiş edirəm ki, ona ən ağır cəzanı versinlər. Çünki onlar heç birimizə mərhəmət etməyib”.

**Meşəli sakini Əjdər Mehralıyev:** ”Mən Meşəli kəndinin xilaskarlarından biri olmuşam. Həmin faciədə döyüşmüşəm. Yalnız Xaçatryan yox, 90% Badara camaatı bu hücumda iştirak edib. Bu qədər vaxt keçməsinə baxmayaraq adları yadımızdadır. Kəndimizin sakini Miryusifi yaralayıb, Xankəndinə apararaq işgəncə ilə öldürdülər. Yarasını kəsib götürmüşdülər ki, guya onu müasir silahla deyil, odlu silahla öldürüblər. Badara camaatının əksəriyyətinin əli şəhidlərimizin qanına bulanıb. Elə onların başında da Vaqif Xaçaturyan dayanırdı. Vaqifin saxlanıldığını eşidəndə arzu etdim ki, onun məhkəməsində iştirak edim. Kaş imkanım olardı, mən ona bir-iki şillə vurardım”.

**Meşəli sakini Çərkəz Mehralıyev:** ”Vaqifin Meşəli faciəsində iştirak etməməsi mümkünsüzdür. Çünki onların hamısı bir nəfər kimi and içmişdilər ki, azərbaycanlıları Qarabağdan etnik təmizləmə yolu ilə çıxarıb, böyük bir Ermənistan dövləti yaratsınlar. Ona görə də onlar uşaq, qadın, yaşlı, cavan demədən qarşılarına çıxan hər kəsi öldürürdülər. Onlar başımıza gətirdikləri heç bir müsibətdə güzəştə getməyib. Bizim kənddə hamı bir-birinə qohum idi. Ona görə də Meşəlinin şəhidləri elə bizim şəhidlərimizdir”.

**Meşəli sakini Alış Alışov:** ”Çox ağır faciələr yaşamışıq. Qarabağda ən birinci ağır itkilər verən Meşəli kəndi olub. Meşəli hadisələrində 23 dekabr 1991-ci ildə atışma başlayanda ailəmlə kənddə idim. Mən Meşəli kəndində məktəb direktoru işləyirdim. Ermənilər məktəbimizi dağıtdılar, evlərimizi yandırdılar. Gözümüzün qabağında camaatı öldürdülər. Ərzaq maşınlarımızı dağıtdılar, mal-qaramızı ələ keçirdilər. Qonşumuz Qəniməti Sadayın evinin qapısında balta ilə vuranda mən onu Nəbinin evindən görürdüm. Vaqif də ordaydı. Qənimət təslim olsa da, ona qulaq asmadılar. Balta ilə başına vurduqdan sonra ona bir neçə güllə vurdular. Bibimi də başından vurub öldürdülər. Ona görə də Vaqifə ölüm cəzası verilməyini istəyirəm”.

***Ləman Sərraf***



## Kim Cənubi Qafqazda sülhə və təhlükəsizliyə qarşıdır?

“Avropanın bəzi dövlətlərinin Ermənistanla Azərbaycan arasında aparılan sülh müzakirələrinə və ümumiyyətlə, Cənubi Qafqazın gələcəyinə, sabitliyin bərpa olunmasına, təhlükəsizliyə münasibəti birmənalı deyil. Daha çox təxribatçı, region ölkələrinin əksəriyyətinə qarşı ərazi iddiası ilə çıxış edən Ermənistanı dəstəkləməklə yeni müharibələri alovlandırırlar. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini 27 ildən sonra təkbaşına həyata keçirdi. Minsk qrupunun 27 il davam edən fərsiz fəaliyyətinə rəğmən, Azərbaycan cəmi 44 günə bu problemi həll etdi. Ədalət bərpa olundu, işğalçı ölkəyə, onların Azərbaycan ərazisində yaratdıqları separatçı quruma lazımi dərs verildi. Ən əsası, Azərbaycan vətəndaşının yurd həsrətinə son qoyuldu”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat Avropa ölkələrinin, bəzi beynəlxalq təşkilatların münaqişənin həllində tutduqları yanlış mövqeyə görə onları sərt tənqid edib: ”Avropa dünyada arbitr rolu oynamağa çalışır. Guya ədaləti bərpa edir, haqlının yanında durduğunu cidd-cəhdlə sübut etməyə çalışır. Bu gün ermənilərin Qarabağdan öz arzuları ilə getmələrini faciə kimi qələmə verənlər, Azərbaycanı suçlayanlar, ”etnik təmizləmə”də ittiham edənlərin yaddaşlarını təzələmək, bu da təsir etməsə, o beyinləri qazmaq lazımdır ki, 1989-1993-cü illərdə Ermənistandan və Azərbaycan ərazilərindən bir milyondan artıq azərbaycanlının zorla, top-tüfənglə, silah gücünə qovulduğu faktını unutmasınlar. Bəs həmin ölkələr, həmin təşkilatlar ədaləti, insan haqqını niyə yadlarına düşmədi? Niyə bircə dəfə də olsun quru bir bəyanatla çıxış etmədilər, Ermənistanın işğalçı siyasətini qınamadılar? Əgər bunu etsəydilər, bu gün onların münasibətini anlamaq olardı. ABŞ-ın, Avstraliyanın, Kanadanın ardından Avropa İttifaqının bir sıra ölkələrinin açıq şəkildə Ermənistana dəstək nümayiş etdirməsini anlamaq olmur. Bu ölkələrin parlamentlərinin çıxardığı qərarlar qərəzli olmaqla yanaşı, həm də reallıqdan tam uzaqdır. Siyasi dəstək azmış kimi Avropa İttifaqı Ermənistana Fransanın timsalında silah satışını həyata keçirir. Müharibənin başa çatmasından ötən 3 il ərzində Azərbaycan daim sülh tərəfdarı olduğunu bildirib, qonşu ölkələrin ərazi bütövlüyünü tanıdığını elan edib, Cənubi Qafqazda sülh və təhlükəsizliyin bərpa edilməsi üçün bütün gücünü ortaya qoyub, amma bunu istəməyən qüvvələr işğalçı ölkəni yenidən silahlandırırlar. Adını isə ”Ermənistanın özünü qorumaq haqqı” qoyurlar. Bu, tamamilə yalnış yanaşmadır. Həmin silahlar müdafiə yox, hücum xarakterlidirsə, deməli, müharibə də gec-tez alovlanacaq”.

***Səbinə***

# “Gələn ilin əvvəlində Şuşa şəhərinə qayıdış baş tutacaq”

*ŞƏRH EDİLDİ*

“Torpaqlarımız hələ işğal altında olarkən, Azərbaycan dövləti Böyük Qayıdış adlı plan hazırladı. Hazırlanmış planda bütün mərhələlər nəzərə alınmışdı. Bu Azərbaycan xalqının mütləq öz torpaqlarını azad edə biləcəyinə dair qətiyyətin göstəricisi idi”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Deputat qeyd edib ki, milli birlik, xalqın liderə inamı, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş daxili və xarici siyasəti mərhələ-mərhələ bütün torpaqlarımızın işğaldan azad edilməsinə, Azərbaycan torpaqlarında suverenliyin bərpasına gətirib çıxardı: ”İlk gündən bütün yaşayış məntəqələrinə qayıdış planları nəzərdə tutuldu. Bunların içərisində rayon mərkəzlərinə qayıdış isə xüsusi önəm daşıyırdı.

Laçın şəhəri daha az dağıdıldığına görə, qısa zamanda şəhər bərpa edilərək, kommunikasiyalar qaydasına salınaraq, insanların yurdlarına qayıdışı təmin edildi. Bu günlərdə isə növbəti ailələr Laçına qayıtdı. İlin sonuna kimi yeni qrup laçınlıların da öz şəhərlərinə qayıdışı nəzərdə tutulub.




Azərbaycan dövləti öz vətəndaşlarının hüquqlarını yüksək səviyyədə qoruyur. Bunların içərisində öz dədə-baba torpaqlarına qayıdış xüsusi önəm daşıyır. Nəinki Laçın, digər rayon və şəhərlərə də qayıdış planları artıq hazırdır. Gələn ilin əvvəlində Şuşa şəhərinə, il yarımdan sonra isə artıq Ağdama qayıdış baş tutacaq. Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl rayonlarında da böyük tikinti işləri davam etdirilir. Həmin ərazilərə də qayıdış baş tutacaq. Azərbaycan xalqı Ali Baş Komandanın müdrik siyasəti nəticəsində öz tarixinin parlaq səhifəsini yazır”.

***S. Hüseynli***

# Sonun başlanğıcı

**(fəlsəfi esse)**



*-Arius-19 qalaktik ulduz ekspedisiyası. Andromeda Qalaktikası Kosmik Mərkəzi sizi çağırır. Cavab verin? Hara dasınız?*

-Kosmik Mərkəz, Arius-19 eşidir, qəbul.

*-Mövqeyiniz və vəziyyətiniz haqda raport verin.*

-Mərkəz, hər şey qaydasındadır. Hazırda qonşu Süd Yolu Qalaktikasının 4-cü ulduz dumanlığında yerləşən Günəs sistemindəyik. 1 ulduzlu, 9 planetli sistemdir, planetlərdən birinin yerində onun orbiti üzrə asteroid qurşağı dövr edir, qiymətləndirmələrimizə görə, orada dəhşətli nüvə müharibəsi törədilib, planet darmadağın edilib, lakin bundan əvvəl bu dəhşəti törədən bir qrup şəxs kosmik gəmilərlə aradan çıxa bilib və yaxınlıqda yerləşən, həyat üçün əlverişli olan Yer planetinə keçiblər. İndi həmin planetin dağıdılması ilə məşğuldurlar. Hazırda həmin planetin aşağı orbitindəyik və planetdəki bütün prosesləri izləyirik. Vəziyyət çox acınacaqlıdır. Buradan qaçacaqları yer yoxdur, çünki yaxınlıqda bunların yaşaya bilməsi üçün yararlı planet yoxdur, olsaydı belə ora gedə biləcək texnologiyalarının yaxın bir neçə yüz ildə olmayacağı dəqiqdir.

*- Arius-19, oradakı sivilizasiya hansı təfəkkür mərhələsindədir? Əlaqə yaradılması üçün uyğun səviyyədədirlərmi?*

- Mərkəz, buradakı sivilizasiya ibtidai təfəkkür səviyyəsindədir. Mütəxəssislərimiz son 5 min illik tarixi nəzərdən keçirdi, bu müddətdə bir gün belə müharibəsiz keçməyib. Bu qorxunc məxluqlar müxtəlif, siyasi, dini, etnik və sair qruplara bölünüb bir-birilərini vəhşicəsinə qırmaqla məşğuldurlar. Son 100 ildə 2 böyük dünya müharibəsi törədiblər, 100 milyondan artıq adam öldürülüb. Mərkəz, bəlkə də bunu anlaya bilməyəcəksiniz, çünki kainatın heç yerində belə halla qarşılaşılmayıb, amma bunu raportumuza əlavə etməliydik- burada uşaqları, körpələri də bombalarla, raketlərlə parçalayıb öldürürlər. Qan su yerinə axır. Planetdə son 80 ildə keçirilən saysız-hesabsız nüvə sınaqları nəticəsində hər yer zəhərlənib. İri dövlətlər öz hərbi arsenallarını kütləvi qırğın silahları ilə doldurub- atom bombaları, hidrogen bombaları, neytron bombaları, bakterioloji bombalar, bioloji silahlar, iqlim silahları kimi çox növdə kütləvi qırğın texnologiyaları var.

*-Arius-19, texnoloqlarınız nə deyir, elmi-texniki inkişaf səviyyələri necədir?*

- Burada elm və texnologiya olduqca səhv yolla inkişaf edir və həm planetə, həm də özlərinə ancaq zərər verir. Beləcə dünyalarını məhvə sürükləyirlər. Məsələn, bütün kainat qüdrətli və tükənməz enerjidən ibarət olduğu halda, bunlar enerji əldə etmək üçün planetin altını üstünə çevirib məhv edirlər. Biz araşdırdıq, indiyədək yaratdıqları bircə dənə belə texnologiya nümunəsi yoxdur ki, o, özlərinə və planetə zərər vurmasın. Tibb elmi isə tamam biabırçılıqdır. Bunlar hələ öz orqanizmlərini, öz dünyalarını öyrənə bilməyiblər, amma kainatın cəmisi 13 milyard il qabaq yarandığını "sübut ediblər", halbuki, bizim qalaktikalararası ekspedisiyanın yaşı elə 100 milyard ilə yaxındır. Üstəlik, bunların bəzi alimləri Ali Yaradanın olmadığını, yaradılışın özbaşına yarandığını iddia edirlər. Bunu eşidəndə təəccübdən az qala ölmüşdük. Bir sözlə burada elm və texnologiya da quldurların əlindədir, necə istədilər o formada saxta məlumat buraxırlar ortaya. Ən yaxın qonşu evə- yəni Mars və ya Venera planetinə gedə biləcək texnikaları yoxdur, amma özlərini elə öyürlər elə bil qalaktikada səyahət edirlər. Planetin yeraltı və yerüstü təbii sərvətlərini o qədər vəhşicəsinə talayıb dağıdırlar ki, artıq sivilizasiyanın yaşaması üçün lazım olan bir çox zəruri maddələr tükənir. Yüzlərlə hərbi bioloji lobaratoriya yaradıblar, durmadan qorxunc viruslar istehsal edirlər. Kənardan müdaxilə edilməsə, bu planetdə həyat başa çatacaq.

*-Arius-19, müdaxilə ixtiyarımız yoxdur, hər şey yaradılış qanunlarına və təbii qaydalara uyğun olmalıdır. Planetdə hansısa formada idarəetmə yoxdurmu?*

- 200 dövlət yaradıblar, bütün gücləri hərbi texnologiya və silahlara sərf edib birbirilərini qırırlar. Özləri cəhənnəm, digər canlıları da vəhşicəsinə məhv edirlər. Astrobioloqlarımız deyir ki, indiyədək planetdəki heyvan növlərinin 60 faizindən çoxunu yoxa çıxarıblar, bu rəqəm 80 faizə çatanda planetdə bioloji həyat məhv olur. Astroekoloqlarımızın qiymətləndirmələrinə görə, planet çox zəngin və möhtəşəmdir, lakin onu artıq xarabaya çevirirlər. Meşələrin 60 faizi məhv edilib, bütün su mənbələri çirkləndirilib, torpaqlar zəhərlənib, bitkilər və heyvanlar genləri dəyişdirilərək dəhşətli vəziyyətə salınıb. Özləri isə, axmaq fəaliyyətlərinin nəticəsi olan yaranmış minlərlə xəstəliklə mübarizə aparırlar. Burada dünya birliyi adı ilə bir təşkilat yaradıblar, lakin o da iri dövlətlərin əlində oyuncağa çevrilib və müdaxilə edə biləcəyi heç nə yoxdur.

Planetin sərvətləri 100 milyard adamı təmin etmək gücündə olsa da, 8 milyard adamın 4 milyardı yoxsul halda yaşayır. 1 milyardı isə ac qalır, halbuki, hazırki ərzaq isehsalı 15 milyard adama yetəcək həddədir. Bir vəhşi idarəetmə sistemi yaradıblar, adına kapitalizm deyirlər, bir qrup adam biclik, fırıldaq və zor gücünə dünyanın bütün sərvətinə yiyələnib, qalanlarına heç nə saxlamırlar.

*-Arius-19, planetdəki məxluqlarla canlı əlaqə yarada bilmisinizmi, digər sivilizasiyalara münasibətləri necədir?*

-Mərkəz, planetdə özlərini şüurlu sayan şüursuz məxluqların ümumi sayı 8 milyarddır. Əvvəl müşahidə etdik və arada özümüzü göstərdik ki, görək reaksiyaları necədir? Bizi atəşə tutdular, hər şeyə düşmən kimi baxırlar. Bizim texnoloqlar bunların informasiya və kommunikasiya sistemlərini araşdırdı, bütün filmlərdə bizi və kainatın başqa yerlərində olan digər sivilizasiya nümayəndələrini qorxunc və dəhşətli təsvir edirlər. Halbuki, kainatda yeganə vəhşi canlı növü bunlardır. Bir neçə gün əvvəl bizim uşaqlar onlardan birini tutub gətirmişdilər ana gəmimizə. Astropsixoloqlarımız onunla bir az söhbət etdi, gördük ki, bunlar ibtidai təfəkkürdən də aşağı səviyyədədirlər. Utanmadan bizə dedi ki, yaradılışın əşrəfi insandır. Gəmi heyətimiz gülməkdən az qalmışdı ölsün, güclə özlərinə gətirdik. Baxdıq ki, beyinlərinin 1 faizini belə istifadə edə bilmirlər. O 1 faizin də çoxu qəzəb, nifrət, paxıllıq, vəhşilik, əxlaqsızlıq, qudurğanlıq, hakimiyyət hərisliyi, sərvət hərisliyi, yalançılıq kimi pis xüsusiyyətlərlə yüklənib. Bunları ona deyəndə boynuna almadı, özünü artistliyə qoydu. Nə isə, gördük başa sala bilməyəcəyik, yola saldıq getdi.

*-Arius-19, sosioloq ekspertləriniz nə deyir, bunların qalaktik federasiyaya qəbul edilməsi üçün nə qədər vaxt lazımdır, əhliləşmək imkanları varmı?*

-Mərkəz, bəli belə qiymətləndirmə aparılıb. Bunlar hələ ibtidai sivilizasiyadır. Texniki cəhətdən beş-on primitiv aparat filan yarada biliblər, amma mənəvi cəhətdən güclü deqradasiyaya məruz qalıblar. Belə şüur səviyyəsi ilə Yüksək Sivilizasiyalı Planetlər Şurasına qəbul edilmələri mümkün deyil. Hesablamalarımıza görə, bunun üçün azı 600 il vaxt lazım olacaq, lakin planetin heç 100 il vaxtı qalmayıb. Sonunu əsrini yaşayır. Planet elə vəhşicəsinə dağıdılıb ki, proseslər qarşısıalınmaz və geridönməz mərhələyə keçib. Artıq qlobal kataklizmalar başlayır. Bundan başqa, qiymətləndirmələrimizə görə, yaxında kütləvi qırğın silahlarının iştirakı ilə sonuncu dünya müharibəsinin baş vermə ehtimalı 94 faizdir. Bir sözlə, bu sivilizasiyanın xilası ancaq nəzəri cəhətdən və möcüzə sayəsində mümkündür.

*-Arius-19, onların arasında yüksək təfəkkürə malik olanlar yoxdurmu, onları xilas etmək mümkündürmü?*

-Mərkəz, bəli, biz hesabladıq, planetdə belələrinin sayı çox deyil. Onlar üçün ana gəmimizin 3-cü korpusunda yer ayırmışıq. Hələ ki, bu planetdə məhvolmanın başlamasını gözləyirik, həmin vaxt onlar xilas ediləcək, burada saxlanılacaq, planet yaşayış üçün normal hala qayıdanda onları yenidən Yer üzünə buraxacağıq.

-Arius-19, diqqətli olun, səhvə yol verməyin, o planetdə həyatın tam yoxa çıxmasına imkan verməK olmaz. Seçdiyiniz əxlaqlı və yüksək təfəkkürlü insanları qoruyun. Tam dağılmadan sonra onlar o planetdə yenidən şüurlu həyatı təmsil edəcəklər və bəlkə də bir müddət sonra normal sivilizasiyaya çevrilə bildilər. Sizə uğurlar. Əlaqənin sonu

***Elçin Bayramlı***

## "Qələbəyə kölgə salanın siyasi mədəniyyəti yetərli deyil"

*MÜNASİBƏT*

"Azərbaycan dövlətinin əldə etdiyi qələbə tarixi bir qələbədir. Uzun illər həsrətində olmuş ki, torpaqlarımız işğaldan azad olsun və həmin torpaqlarda yaşamış insanların öz dədə-baba yurdlarına geri qayıtsınlar. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan ordusu işğal altında olan torpaqlarımızı işğaldan azad etdi". Bunu SİA-ya açıqlamasında Azərbaycan Demokrat Partiyasının sədr müavini Taliyət Əliyev deyib.

Onun sözlərinə görə, 2020-ci ildən sonra Qarabağda separatçı tör-töküntülər var idi və Azərbaycan dövləti dəfələrlə onlara xəbərdarlıq etmişdi ki, onların öz separatçı hərəkətinə son qoymalıdırlar: "Bu iki il ərzində də xəbərdarlıqlar öz nəticəsini vermədi və Azərbaycan dövləti nəticə etibarilə yenə də həmin bölgədə lokal xarakterli antiterror tədbirləri həyata keçirməyə məcbur qaldı. Sentyabr 19-da keçirilən lokal xarakterli antiterror tədbirləri ilə separatizmə son qoyuldu. Beləliklə də, Azərbaycan dövləti bütün ərazilərində öz suverenliyini bərpa etdi. Bu, çox sevindirici və qürurverici bir haldır ki, Qarabağın hər bir yerində Azərbaycanın üçrəngli bayrağı dalğalanır. Demək olar ki, bu problem dünən bu günün problemi deyildi, bu, əslində, iki yüz ilə yaxın bir problem idi ki, bu problem də kökündən həll olundu.

Bu qələbəyə sevinməmək mümkün deyil, bu, böyük tarixi parlaq qələbənin üzərində hər hansı bir kölgə salmaqda mümkün deyil. Bir sözlə, bu məsələyə kimlər sevinmirsə, mən artıq bu məsələdə, sözün həqiqi mənasında, söz tapmaq mümkün deyil. Kimsə özünün hansısa bir siyasi ambisiyasına görə əldə etdiyimiz bu qələbəyə kölgə salmaq istəyirsən, həmin şəxslərin özündə siyasi mədəniyyət yetərli deyil. Lakin onların nə deməsindən və etməsindən asılı olmayaraq onlar heç vaxt öz istəklərinə çatmayacaqlar. Yaxşı olardı ki, onlar bu cür hərəkətlərindən əl çəksinlər".

## Soyuducuda ərzaqların qonşuluğu necə olmalıdır?

*MÜTƏXƏSSİS AYDINLIQ GƏTİRDİ*



"Soyuducuda çarpaz çirklənmənin qarşısını almaq üçün riskli məsullar biri-birindən aralı olmalıdır. Məsələn, ət, toyuq və balığın yanaşı qoyulması düzgün deyil. Çünki toyuqda bakteriyalar ətə yoluxmuş ola bilər və ya əksi baş verə bilər". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Ağa Salamov deyib.

A.Salamov bildirib ki, adıçəkilən məhsullar emal prosesindən sonra üzəri bağlı şəkildə, soyuducuda ayrı-ayrı rəflərdə mühafizə olunmalıdır: "Bişmiş qidalar isə çiy qidalardan ayrı mühafizə edilməlidir. Ən alt qatda isə çiy məhsulların düzülməsi məqsədəuyğundur.

Ümumiyyətlə bir qayda olaraq ətlə toyuq yanaşı gəlməmidir. Yəni ətin doğrandığı taxta yuyulmamış üzərində ət doğramaq düzgün deyil. Əks halda çarpaz çirklənmə nəticəsində qida zəhərlənməsi baş verə bilər".



# Son zamanların fenomen məhsulu: QURU ŞAMPUN

***Son zamanlar qadınlar arasında "quru şampun" adlanan bir məhsul məşhurlaşıb. Belə ki, bu məhsul çirkli saçları su dəymədən tər-təmiz edir. Qadınların əksəriyyəti də onu canqurtarıcı adlandırır. Məsələn, əgər təcili gedəcək bir yer çıxarsa, bu şampun köməyimizə çatır.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Necə tətbiq olunur?





Sprey şəklində olan və toz quruluşlu quru şampun saçdakı yağ tərkibini azaltmağa kömək edir, eyni zamanda saçları daha həcmli göstərən kosmetik məhsuldur. Bu sprey məhsulu saçın kök və yağlı hissələrinə uyğun şəkildə tətbiq etdikdən sonra ağ görünüş yaranacaq. Ancaq bu görüntü sizi qorxutmasın. Çünki bir müddət sonra bu ağlıq yox olur.

## İstifadəsi kimlər üçün əlverişlidir?

Bütün günü işləyən və ya tələsən insanlar üçün quru şampun istifadəsi ideal üsul ola bilər. Məsələn, gününün böyük bir qismini işdə keçirən iş qadınları, yaxud uşaqlı analar bu üsula daha çox üz tutur.

Eyni zamanda, çox düz və sönük saçlı xanımlar saçlarını daha həcmli etmək üçün quru şampundan istifadə edirlər.



Quru şampun istifadəsi sayəsində hər yerdə rahatlıqla istifadə edilə bilən məhsuldur. Ancaq bilinməlidir ki, saçları dərindən təmizləmir. Səthi təmizləmə təmin etdiyi üçün günün sonunda duş qəbul edərək saçları yaxşıca təmizləmək lazımdır.

## Hansı fəsildə daha çox üstünlük verilir?

Xüsusilə, qış aylarında quru şampuna çox üstünlük verilir. Sərfəli qiymətləri də insanların ona üstünlük verməsini təmin edir.

## İstifadə qaydası:

Quru şampun olan qutunu yaxşıca silkələyin ki, içindəki sprey yaxşı qarışsın. Çünki bu prosesi gözardı etsəniz, quru şampun saçınızda kif kimi qalacaq. Daha sonra bu spreyi saçın yağlı və ya aralarında görünən hissələrinə çəkib bir az sürtmək lazımdır. Ancaq diqqət etməli olduğunuz ən vacib şey, çox yaxından püskürtməməyinizdir. Quru şampun ilk dəfə saça çəkildikdə ağ pudralı bir görünüş yaranır. Amma bu görünüş təxminən 2 dəqiqədən sonra yox olacaq. Daha sonra seyrək fırçalı daraqla saçları daramaq və sanki duşdan təzə çıxan görünüşü almaq mümkündür. Quru şampun tətbiq edildikdən sonra istəyə görə saçları düzəltmək və qurutmaq da mümkündür. Qeyd edək ki, quru şampun tətbiqi 2 və ya 3 dəqiqə çəkəcək bir prosesdir.

## Quru şampunun zərərləri nələrdir?

Quru şampundan çox istifadənin zərərli təsirləri var. Yəni, müsbət tərəfləri ilə yanaşı, bir çox mənfi cəhətləri də var. Ən böyük zərər həddindən artıq istifadə zamanı baş verir. Quru şampundan çox istifadə edildikdə baş dərisində kəpək və yaraların əmələ gəlməsi ehtimalı artır. Bundan əlavə, baş dərisində sızanaqlara və hətta kistlərə səbəb olur. Mütəxəssislər bununla bağlı istifadəçilərə də xəbərdarlıq edir.

Xüsusilə son illərdə onun istifadəsi çox artıb. Quru şampun yalnız saçın yağlı görünüşünü sanki maskalamağa xidmət edir. Bu prosesi edərkən saçın normal yağ balansını pozur və saç köklərində quruluğa səbəb olur. Bu qurutma daha sonra kəpək əmələ gəlməsinə səbəb olmağa başlayır. Bu səbəbdən çox çətin vəziyyətdə olmasanız və ya çox tələsmədiyiniz halda quru şampundan istifadə etməyiniz tövsiyə edilmir. Quru şampundan çox istifadə edildikdə saç köklərində tozlu təbəqənin əmələ gəlməsinə səbəb olur. Onun təkrar istifadəsi saçın əvvəlki yumşaqlığından və nəmli görünüşündən əsər-əlamət qoymur.



Araşdırmalar göstərir ki, quru şampunun tez-tez istifadəsi saçlar düzgün yuyulmadığı üçün saçınızın köklərində yığılma ilə nəticələnəcək. Bu, follikulların tıxanmasına və bu problemin zamanla daha da artmasına səbəb ola bilər. Problemin qarşısını almaq üçün saçınızın yağlılığına uyğun olaraq yuyulma vaxtınızı təyin etməli və müntəzəm olaraq yumalısınız. Bir çox mütəxəssislər saçları iki dəfə şampunlamaq lazım olduğunu bildirir. Lakin bu məqamda saçınızı düzgün yumaq çox vacibdir.

Quru şampunu saça çəkdikdən sonra bir müddət gözləmək lazımdır. Bunun səbəbi quru şampunun saç köklərindəki yağlılığı azaltmasını gözləməkdir. Ancaq insanların çoxu onun təsirini gözləmədən daha çox məhsul tətbiq edir. Bu, da quru şampunun nəticə verməməsinə səbəb olur. Əksinə, artıq məhsul saçın köklərində toplanır və saçınızın sağlamlığını təhlükəyə atır. Bu kimi problemlərin qarşısını almaq üçün kifayət qədər miqdarda quru şampun çəkdikdən sonra bir müddət gözləməli və daha yaxşı nəticə əldə etmək üçün tətbiqdən sonra saçlarınız daranmalıdır.

## İstifadəçilər nə söyləyir?

İstifadəçi Rüfanə İsmayılova: "Dəfələrlə quru şampun alsam da, heç bir effekt görməmişəm. Əksinə, saçım daha da ağırlaşaraq qaşınma yarandı. Saçım çox yağlandıqda və təcili işim olduqda yağlı görüntünü aradan qaldırmaq üçün uşaq pudrası istifadə edirəm. Amma evə qayıdan kimi saçlarımı tez yuyuram".

Aliyə Qarayeva: "Mən belə məhsulların istifadəsindən çox çəkinirəm. Ən yaxşısı dədə-baba üsulu ilə normal çimməkdir. Təbii ki, uşaqlı analar və təcili işi olanlar bu məsələdə istisnadır. Canqurtarıcı olsa da, bir çox komfortlar həyatımıza ciddi təhlükə yaradır".

Ülkər Orucova: "Mən bu məhsuldan istifadə etmişəm. Müsbət cəhəti odur ki, çirkli saçdakı yağlı görüntünü aradan qaldırır. Amma saçda ağırlıq yaradır. Yəni, insan özünü rahat hiss etmir.

Bundan əlavə olaraq bir müddət sonra saç dibində qaşınma yaradır və ağır toz qalır. Bir növ "saç lakı" kimidir. Əl vuranda saç dibi bərk olur".

***Bəs, saçları tez-tez yağlanan insanlar nə etməlidir? Quru şampundan başqa hansı zərərsiz alternativlər var?***

## Alma sirkəsi

Sirkənin tərkibində olan və ona həm kəskin dadını, həm də qoxusunu verən sirkə turşusu baş dərisində pH balansının saxlanmasında mühüm rol oynayır. Sirkəni su ilə qarışdırıb saçınıza tətbiq etdiyiniz zaman daha uzun müddət yağsız qalan yumşaq və parlaq saçlara sahib ola bilərsiniz. Ümumiyyətlə, alma sirkəsi tövsiyə edilsə də, istəsəniz üzüm sirkəsindən də istifadə edə bilərsiniz.



## Lavanda

Sirkə qoxusu sizi narahat edirsə və ya saçınıza gözlədiyiniz effekti vermirsə, daha ətirli bir alternativ lavandadır. Asanlıqla əldə edə biləcəyiniz qurudulmuş lavanda yarpaqlarını götürün, təxminən 2-3 stəkan suya bir çimdik atın və 10 dəqiqə qaynadaraq suyun soyumasını gözləyin. Soyuq olanda quru saçlarınıza kökdən ucuna qədər çəkin və 30 dəqiqə saxlayın. Sonra saçınızı həmişəki kimi yaxşıca yuyun. Yağlılıq probleminin azaldığını görənə qədər bu üsulu həftədə bir dəfə tətbiq edin.

## Soda

Sirkə kimi bir çox təmizləmə prosesində məşhur olan soda saçları yağlardan təmizləməkdə effektlidir. Baş dərisinin pH balansını tənzimləyən sodadan istifadə etmək üçün 3 stəkan suya təxminən 1 çay stəkanı soda əlavə edin. Yaxşı qarışdırın və bu qarışımı sprey şüşəsinə tökün, saçınıza çəkin. İlk növbədə saçı təmiz su ilə kökdən uca qədər isladın və 5 dəqiqə saxlayın. Sonra adi saç yuma prosedurlarınızı edin.

## Qara çay

Çayın tərkibində olan taninlər də saçların tez yağlanmasının qarşısını almaqda çox təsirlidir. Üstəlik bu üsulu seçsəniz, artıq dəmlədiyiniz çayı soyuduqdan sonra istifadə etməklə işinizi asanlaşdıra bilərsiniz. Təxminən 1 stəkan dəmlənmiş qara çayı saçlarınıza kökdən ucuna qədər çəkin və təxminən 10-15 dəqiqə saçınızda saxlayın, sonra yaxşıca yuyun.

## Nanə

Tərkibindəki faydalı maddələr sayəsində həm saç dərinizin pH balansının qurulmasında, həm də təravətləndirilməsində təsirli olan adlardan biri də nanədir. Mümkünsə təzə nanə, tapa bilmirsinizsə qurudulmuş nanə almaqla başlayın. 1 dəstə təzə nanə və ya 1 ovuc quru nanəni 1 litr suda qaynadın. Sonra onu süzün və yaranan suyun soyumasına icazə verin. Bir sprey şüşəsinə tökünvə saçınıza tətbiq edin. 10-15 dəqiqə saxlayın və yuyun.

## Limon suyu

Limon baş dərisinin pozulmuş pH balansını bərpa etməyə kömək edir. 1 stəkan suya 1 təzə sıxılmış limonun suyunu əlavə edib qarışdırın. Sprey şüşəsinə tökdüyünüz qarışığı saç köklərinizə çəkin və 10 dəqiqə saxlayın. Bu tətbiq zamanı yüngül qaşınma baş verə bilər. Bundan dərhal sonra saçınızı yaxşıca yumağı və yaxalamağı unutmayın. Əgər baş dəriniz çox həssasdırsa, bu qarışıma 1 çay qaşığı bal əlavə edə bilərsiniz.

## Pomidor

Limon kimi pomidor da turşulu bir quruluşa sahib olduğu üçün yağlı saç problemini azaltmaqda təsirlidir. 1 böyük pomidor götürün, qabığını soyun və yaxşıca doğrayın. Sonra suyunu çıxarmaq üçün incə süzgəcdən keçirin. Əldə etdiyiniz pomidor suyunu saç dərinizə çəkin, 25-30 dəqiqə saxlayın və saçınızı yaxşıca yuyun.

## Aloe vera

Tamamilə dəriyə və saça dost olan aloe vera bitkisinin yarpaqları arasında olan gələnzər quruluşdan hər dəfə saçınızı yuyanda 1 çay qaşığı götürərək istifadə edəcəyiniz şampun miqdarına əlavə edin, qarışdırın və saçınızı yuyun. Tezliklə görəcəksiniz ki, saçınızda yağlanma problemi azalıb".

***Ayşən Vəli***

# Davamlı inkişafımıza xidmət edən yol infrastrukturu







***Azərbaycan nailiyyətləri ilə dünya birliyində sayılıb-seçilən, təşəbbüsləri və nəhəng iqtisadi layihələri ilə bütün bəşəriyyətə fayda verən dövlətlər sırasındadır. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Respublikamızın bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyəti Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirmişdir. Ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən yol infrastrukturu əhəmiyyətə malikdir.***

Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində böyük nailiyyətlər əldə edib. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərləri çərçivəsində bir sıra sosial və iqtisadi xarakterli obyektlərin açılışı olub. Modul tipli xəstəxanalar, yeni yollar, mədəniyyət, xidmət mərkəzləri və s. istifadəyə verilib. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, son illərdə ölkəmizdə yolların yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun inşası ölkəmizdə yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində icra olunan işlərin davamlı xarakter aldığını göstərir. Azərbaycan Prezidenti İlham Əliyev Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun açılışı da iştirak edib. Bu yolun təməli 2017-ci ilin dekabrında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı yolun təməlinin qoyulduğu ilk gündən başlayaraq inşaat prosesinin gedişi ilə şəxsən və yerində maraqlanıb, tikinti işlərinin ən yüksək standartlara uyğun icra olunması ilə bağlı vaxtaşırı tapşırıqlarını verib. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqrammı"na uyğun olaraq yeni avtomobil yolunun Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən başlayaraq Rusiya sərhədinədək olan 150 kilometrlik hissəsi birinci texniki dərəcəyə uyğun inşa edilib. Magistralın 129 kilometrlik hissəsi ödənişli yol kimi müəyyənləşdirilib və Tarif Şurası tərəfindən gediş tarifləri təsdiq edilib. Gediş üçün ödənişin məbləği nəqliyyat vasitəsinin qət etdiyi məsafə, çəkisi və ay ərzində gedişlərin sayı nəzərə alınmaqla müəyyənləşdirilib. Ödənişli avtomobil yolu 4 zolaqlıdır. Ödənişli yoldan istifadə tarifləri yeni müəyyən olunduğu üçün hazırda həmin tariflərin ödəniş sistemində inteqrasiyası həyata keçirilir. İnteqrasiya yekunlaşdıqdan sonra ödəniş sisteminin proqram təminatı test ediləcək. Sınaqlar başa çatdıqdan sonra yol ümumi istifadəyə veriləcək. Qeyd olunan işlərin qısa müddət ərzində yekunlaşdırılması nəzərdə tutulur. Yolboyu 40 yol ötürücüsü və körpü, 52 alt keçid, 6 ödəmə və yükə nəzarət məntəqəsi, 2 mindən çox yol nişanı və məlumat lövhəsi quraşdırılıb. Həmçinin hər hansı maneənin yola çıxmasının qarşısını almaq üçün tədbirlər görülüb.

Qeyd edək ki, ödənişli yoldan istifadə xüsusi çip yerləşdirilən kart vasitəsilə həyata keçiriləcək. Bu kartı yolun giriş və çıxışlarından, yaxın gələcəkdə isə şəhər və rayonlarda müxtəlif satış nöqtələrindən əldə etmək mümkün olacaq.

Ödənişli yoldan keçid kartının ilk nümunəsi Prezident İlham Əliyevə təqdim olunub.

Bu yolun istifadəyə verilməsi, həmçinin beynəlxalq nəqliyyat əməkdaşlığı baxımından strateji əhəmiyyət daşıyan Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin səmərəliliyini daha da artıracaq. Bundan başqa, yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayacaq.

Ölkə başçısının tapşırığı ilə son illərdə yol infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində həyata keçirilən layihələr öz bəhrəsini verir.

Bu gün həqiqətən də Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizdə bölgələrin sosial-iqtisadi inkişafı başlıca prioritetlərdən biri kimi müəyyənləşdirilib, qarşıya qoyulan hədəflərə uyğun olaraq bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***



Mətanət MƏMMƏDOVA

# Yox, Cavid əfəndi, yox...

**Səhər işə gələrkən böyük ədibi-bu gün doğum günü olan Hüseyn Cavidi yolboyu xatırlamışam. Kimlər gəldi, kimlər getdi bu dünyadan, İlahi, deyərək... Sanki bu günümüz üçün yazılmış əsərlərini bir-bir düşünərək, obrazları ilə söhbətləşərək...**

***

Lakin yolda və metroda gördüklərim səhərdən bəri böyük əsərləri ilə xatırladığım ədibin ən kiçik-"Qız məktəbində" əsərini daha çox xatırlatdı mənə və sanki ürəyimdə bu əsərə bir nəzirə yazırmışam kimi pıçıldamağa başladım.

***

Cavid Əfəndi, bir qız gördüm, yolda, xeyr, Gülbahar deyildi. Ola da bilməz. İndi ta qızlara Gülbahar, Fatmanisə, Zəhra, Güləbətin isimlərini verən kimdir? Adını da soruşmaram, çünki "sənə nə var"dan başqa eşidəcəyim olmaz.

Atası da olar, anası da, hələ üstəlik babası zəngin də olar bu qızın. Lakin bəyzadə ola bilməz. Çünki bəyzadənin qızı heç inanmıram ki, göbəyini açıb küçəyə çıxa. Bəyzadənin qızının heç inanmıram ki, ətəyi dizindən iki qarış yuxarı ola. İnanmaram ki, bəyzadənin qızı budu, dizi cırıq-cırıq, əti görünən şalvarda küçəyə çıxa...

Xeyr, Gülbahar ola bilməz bəzi qızların adı. Zəngin qızı ola bilərlər, lakin bəyzadənin qızı? Xeyr, əsla mümkün deyil. Çünki bəyzadənin qızı metroda özündən dəfələrlə yaşlı insanların qarşısında çantasından tuş çıxarıb kirpiklərini rəngləməz. Bütün diqqətləri utanmadan, qızarmadan üzərinə çəkməz...

Gülbahar kimi inciləri də var, altın bilərzikləri də bu qızların. Qollarındadır, boyunlarındadır, həm də qatbaqat... Baxdıqca düşünürəm ki, bu inciləri kaş ki, inciyə çevirə bilərdik. Bu bilərzikləri kaş ki, xərcləyib ətəkləri, köynəkləri uzada bilərdik ki, bu qızların göbəkləri, baldırları bayırda qalmasın. Bu bilərzikləri kaş birqatmalı köynəklərin qollarına çevirə bilib, heç olmasa onu iki barmaq edə bilərdik ki, bu qızların qollarının altı bayırda qalmazdı...

Onlara da müəllimləri dəfələrlə söyləyir, anaları söyləməsə də, bizlər "onların yox qiyməti, bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti"ni yazmaqdan barmaqlarımız düyün başlayıb. Lakin indi deyilən söz qulaqlara sırğa kimi asılmır, Cavid əfəndi, bir qulaqdan alınıb, o biri qulaqdan havaya buraxılır.

Bir qızın zinəti həm də astadan danışmaqdır. Lakin yolda-rizdə bəzən qarşına bir dəstə qız çıxır, səslərinin küçədə əks-sədasını eşidirsən, onların yerinə xəcalət çəkirsən. Hələ gülmələrini, şaqqıldamalarını demirəm, Cavid əfəndi...

Bəlkə onlar da Gülbahar kimi Allahı da sevir, ata-analarını, müəllimlərini, bütün insanları da sevirlər. Lakin buna da bir az şübhəm var, Cavid əfəndi.

Soruşsan nədir şübhən? Deyərəm ki, Allahını sevən o libasları sevməz. Allahın ona bəxş etdiyi gizlində qalmalı əzaları müdam açıqda saxlamaz. Ata-anasını sevən, evdən üzü-gözü tərtəmiz çıxıb, metroda insanların arasında gözlərini boyamaz. Evdən uzun ətəklə çıxıb, blokda onu yuxarı qatlamaz. Evdən çıxandan sonra köynəyin ətəyini yuxarı qaldırıb göbəyini insanlara göstərməz...

Cavid əfəndi, onlar müəllimlərini sevsələr, yolda üzüzə gələndə bir kənara çəkilib ona yol verərlər. Ucadan "salam müəllim, müəllimə", deməklə sevgi bitmir. Sevgi hörmət, saygıdır...

Bütün insanları Gülbahar qədər sevdiklərinə də şübhəli qalıram. Çünki bütün insanları sevərlərsə, onlara verilən nəsihəti, tövsiyəni də səmimiyyətlə qarşılayardılar, deyilmi?

Cavid əfəndi, sənin Gülbahara verdiyin sualın birini indi bəzi qızlara verməkmümkünmü, sanırsan? Adın nədir, baban varmı, zənginmidir, sənin incilərin, altın bilərziklərin varmı, kimi sevirsən, bəs daha kimi sevirsən??? Yox, Cavid əfəndi, yox... İnanın, bu sualların hər birinə təhqiramiz cavab alarsan.

***

Səni necə gözəl xatırlamışdım, Cavid əfəndi, sübh tezdən çağından. Lakin heyiflər olsun ki, cəmiyyətin sağalmaq bilməyən "yaraları"ndan axan çirk ovqatımı tamamilə təlx etdi. Ruhun şad olsun, Hüseyn Cavid əfəndi. Nə yaxşı ki, bizimsən və bizimləsən...

# Fars-molla rejiminin islama heç bir aidiyyatı yoxdur

Tarixi faktlara istinadən demək olar ki, fars-molla rejimi bütün dövrlərdə ermənilərə hərbi-siyasi dəstəyini nümayiş etdirib. Xüsusilə də, Azərbaycanına qarşı siyasətinin həyata keçirilməsində fars-molla rejimi və erməni terrorçuları eyni mövqedən çıxış ediblər. Məhz bu kimi birliyin nəticəsi olaraq Azərbaycanın dilbər guşələri işğal edilərək viran olunub. Talançılıqda və məhvetmə siyasətində də bu iki terror dövləti birgə iştirak ediblər. Xatırlatmaq lazımdır ki, Şuşa işğal olunanda Azərbaycan Respublikasının Milli Məclisinin sədri, eləcə də prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov Tehranda idi. Orada Ermənistan prezidenti Ter-Petrosyanla cəbhədə atəşkəsə nail olunması ilə bağlı müqavilə imzalayırdı. Belə məqamda Şuşa işğal olundu.



Bu, nə deməkdir? Yəni, fars-molla rejimi Yaqub Məmmədovu aldadaraq Tehrana apardı, ermənilər də asanlıqla Şuşanı işğal etdilər. 20 noyabr 1991-ci ildə Qarakənd səmasında Azərbaycanın yüksək dövlət rəsmilərinin olduğu vertolyotun vurulmasında da fars-molla rejiminin əli vardı. Sübut olunub ki, bu hadisəni törədən 17 nəfərdən biri əmmaməli mollaların əməkdaşı olub. Həmin terror aktını törədən şəxslər fars-molla rejiminin nəzarət etdikləri torpaqlara maneəsiz keçib. 30 illik işğal dövründə də mollalar rejimi işğalçı Ermənistanı bu və ya digər formada dəstəkləyir. Hər gün ermənilər heç bir viza, şərt tələb olunmadan Xudafərin körpüsü vasitəsi ilə İrana gedib gəlirdilər. Bu, həm də onu göstərir ki, fars-molla rejimi burada Rusiyanın maraqlarını təmsil edirdi. O zaman sərhəd olmadığından fars-molla rejimi Ermənistana silah-sursat göndərirdi. Narkotikanın əkilib becərilməsi və onun Asiya və Avropaya daşınmasında da işğal edilən torpaqlar əsas gəlirli sahə hesab edilirdi. Yada salmaq lazımdır ki, torpaqlarımız işğaldan azad edildikdən sonra Xocavənd, Ağdərə və Xocalı istiqamətində yüzlərlə hektar sahələrdə narkotik sahələri aşkarlanmışdır. Şübhəsiz ki, həmin narkotika fars-molla rejimi və Ermənistanın xunta rejimi birgə əkib-becərmişlər.





## Fars-molla rejiminin islama heç bir aidiyyatı yoxdur

Fars-molla rejimi özünü islam respublikası elan edib. Bu respublikanın banisi ayətullah Xomeneyidir. Xomeneyidən qalma ideologiyaya görə, müsəlmanın müsəlmandan yaxın dostu yoxdur. İdeologiyanın birinci şərti budur. Amma fars-molla rejiminin indiki və əvvəlki prezidentlərinin apardıqları siyasətə nəzər yetirdikdə, bu ideologiyanın ayaqlar altında tapdalandığını görmək olar. Fars-molla rejiminin bütün prezidentləri, hökumət rəhbərləri, din xadimləri özlərini Xomeneyinin davamçıları hesab edirlər. Amma onlar Xomeneyizm ideologiyasının birinci prinsipini - Azərbaycanın torpaqlarını işğal edib, 1 milyondan çox insanı ev-eşiyindən didərgin salmış Ermənistanla geniş əməkdaşlıq münasibətləri qurmaqla pozublar. Bu gün xomeneyizm ideologiyasının mühüm prinsiplərindən biri də islam inqilabının ixracıdır. Amma burada da fərqli mövqe görünür. Yəməndə, Misirdə, Tunisdə inqilablar baş verəndə fars-molla rejimi rəhbərliyi elan etdi ki, bu xomeneyizm ideologiyasına əsasən, fars-molla rejimi inqilabının ixracının təntənəsidir. Fars-molla rejimi Suriyaya qarşı münasibətdə isə əks-mövqe sərgilədi. Halbuki oxşar ssenari, oxşar proseslərdir. Deməli, lazım gələndə, siyasətdə xomeneyist də olmaq olar, başqa halda isə xomeneyzim ideologiyasının əleyhinə siyasət də yürütmək də olar. İranın ali dini rəhbərliyinin apardığı bu yanlış siyasət regionda vəziyyəti gərginləşdirməklə yanaşı, islam dünyasında da parçalanma yaradır. Bu nöqteyi-nəzərdən o qənaətə gəlmək olar ki, əgər yaxın qonşu müsəlman dövləti olan fars-molla rejimi ikili siyasət yeridirsə, o zaman Azərbaycan uzaq olan ərəb dövlətlərindən Ermənistana qarşı sərt mövqe sərgiləyəcəklərini gözləmək olarmı? Burada Azərbaycanın regionun lider dövlətinə çevrilməsi beynəlxalq münasibətlər sistemində söz sahibi olması da ölkəmizə qarşı qısqanclıq hissinin yaranmasına səbəb olur. Bəzi dövlətlər zahirən özlərini dost ölkə kimi göstərsələr də, əslində, Azərbaycanın dünyada artan gücü, yüksələn iqtisadi potensialı onları narahat edir. Bir çox müsəlman ölkələrində hakimiyyət ilə xalq arasında dərin uçurum yaranıb. Onlar bundan da qısqanırlar ki, Azərbaycan sabit, sakit dövlətdir. Azərbaycanda milli birlik mövcuddur. Xüsusilə də, 44 günlük Vətən müharibəsində Azərbaycanın 30 il işğal altında olmuş torpaqlarını erməni terrorçularından təmizləyib, ərazi bütövlüyünü və suverenliyini təmin etməsi fars-molla rejimini ciddi şəkildə narahat edib. Bu baxımdan, dəfələrlə yersiz sərhəd təxribatları törədir, mollalar ardıcıl olaraq Azərbaycana qarşı separatçılara xas təxribatçı açıqlamalar verirlər. Cari ilin yanvarın 27-də isə Azərbaycanın Tehrandakı səfirliyinə terror hücumu təşkil etməklə bir nəfər mühafizəçini qətlə yetirmiş, iki nəfəri isə yaralamışlar. Bu kimi faktlar onu deməyə əsas verir ki, fars-molla rejimi Azərbaycana qarşı terror siyasətini gündəmdə saxlayır. Sabah daha faciəli və qanlı terror aktları törədə bilərlər. Ona görə də, Azərbaycan vətəndaşları daim ayıqsayıq olmalıdırlar.

## Niyə Cənubi Azərbaycanı dövlət olaraq tanıda bilmirik?

Bəzi xalqlar, xüsusilə də dünyanın müxtəlif bölgələrindən Cənubi Qafqaza köçürülən ermənilər mənasız xülyalarla yaşayırlar. Müəyyən hallarda "böyük Ermənistan" yaratmağa səylər göstərirlər. Niyyətlərini və məqsədlərini reallaşdırmaq üçün dünyanın bəzi güclərindən hərbi-siyasi, maliyyə dəstəyi almaqla regionda terror aktları törədirlər. Sual olunur, niyə biz haqqımız olanlara can atmırıq? Nədən biz dili-dini bir olan Cənubi Azərbaycanda yaşayan soydaşlarımızla birləşməyə səylər göstərmirik? Söz yox ki, fars-molla rejiminin əmmaməli mollaları bu birləşməni arzu etmirlər. Nədəndir ki, ermənilər bu birləşmədən sonra ayaqlar altında qala biləcəklərindən qorxmuşlar. Məhz buna görə də 1943-cü ildə tarixi şəraitə əsasən ələ düşən fürsət- Şimali Azərbaycanla Cənubi Azərbaycanın birləşməsi baş tutmamışdır. Nəzərə almaq lazımdır ki, o zaman birləşmə ilə bağlı bütün məsələlər öz həllini tapmışdır. Təbrizi Azərbaycana birləşdirmək üçün İrana gedən Azərbaycan nümayəndə heyətinin tərkibində görkəmli alimlərimiz Əziz Əliyev və İmam Mustafayev də olmuşdur. Onların xatirələrində də bu məsələ qeyd olunub. Amma birləşmə planı erməni-rus maraqlarının üst-üstə düşməsi səbəbindən pozulmuşdur. Planın pozulmasında Mikoyanın böyük xidməti olur. Mikoyan hiyləgərliklə, uydurulmuş yalanları ilə Stalinin Cənubi Azərbaycanla Şimali Azərbaycanın birləşməsinə "yox" deməsinə inandıra bilmişdir. Erməni ideoloqu deyir ki, Cənubi Azərbaycan əraziləri ilə Şimali Azərbaycan birləşərsə, onda 30 milyonluq Azərbaycan dövləti formalaşacaq. Bununla da, Ermənistan ayaqlar altında qalacaq. Yəni, ermənilərin maraqları imkan vermirdi ki, cənubdakı torpaqlarımızla Şimali Azərbaycan torpaqları birləşsin. Baxmayaraq ki, Cənubi Azərbaycanda hərəkat oldu və demokratik dövlət quruldu. Sonda Pişəvəri hərəkatının nümayəndələri Azərbaycana gəldi və onlar burada öldürüldülər. Bundan sonra ABŞ-ın təzyiqi və ermənilərin hiyləgər planı hesabına sovet qoşunları İrandan çıxarıldı. Hətta ABŞ prezidenti Trumen 21 mart 1946-cı il tarixində SSRİ-yə ultimatum verərək, Stalindən sovet hərbi qüvvələrinin İrandan çıxanlmasını tələb etmişdir.

Sovetlər dönəmində də aradabir azğınlıq edən ermənilər Dağlıq Qarabağa uğursuz iddialar da ediblər. 1945-ci ilin payızında Ermənistan KP MK-nın katibi A.Arutyunov ÜİK(b)P MK-nın müzakirəsinə Dağlıq Qarabağ Vilayətinin Ermənistana verilməsi barədə təklif-layihə təqdim edir. Təklifdə xüsusi vurğu ilə bildirir ki, Dağlıq Qarabağın əhalisinin əksəriyyəti ermənilərdən ibarət olduğu üçün həmin ərazi Ermənistana verilməlidir. Bu zaman ÜİK(b)P katibliyi Azərbaycan KP MK katibi M.C.Bağırovun rəyini öyrənmək üçün ona müraciət edir. A.Arutyunovun məktub-layihəsindəki dəlilləri alt-üst edən M.C.Bağırov bildirir ki, əgər ermənilərin əsas götürdükləri səbəbə görə Yuxarı Qarabağın Ermənistana verilməsi məqbul sayılırsa, nə olar, qoy DQMV-nin Şuşa rayonu istisna olunmaqla ərazisi Ermənistana verilsin. Ancaq bir şərtlə: Azərbaycanlıların yaşadığı Vedi, Qarabağlar və Yeğeqnadzor rayonları Naxçıvana birləşdirilsin, habelə, vaxtilə Gürcüstana və Dağıstana verilən Azərbaycan torpaqları geri qaytarılsın. Bu tutarlı tələb qarşısında aciz qalan ermənilər iddialarından geri çəkilir. Bir məsələni də vurğulayaq ki, Qarabağ məsələsinin 1988-ci ildə gündəmə gəlməsi daha çox SSRİ-nin dağılmasına xidmət edən bir layihə idi. Bu layihənin əsas məqsədi SSRİ-ni dağıtmaq üçün separatçılıq mövqeyindən istifadə etdilər. Burada xristian sevgisi də var. Fars-molla rejimi Fransanın Azərbaycana qarşı sərgilədikləri mövqe də eynidir.

Bu siyasi qurbanın ilkin ssenarisi ABŞ-da hazırlanmışdırsa, sonrakı davam ssenarisi Moskvada həyata keçirildi. Bu günə qədər də həmin ssenarinin əks istiqamətdə aparılmaması üçün adlarını çəkdiyimiz dövlətlər icazə vermir. Lakin Azərbaycan bütün planları alt-üst etdi. 2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük Vətən Müharibəsi ilə torpaqlarını işğaldan azad etdi. Bununla da, Ermənistana və məkrli planlar quranlara sarsıdıcı zərbələr vurdu. Əminliklə demək olar ki, gün gələcək Təbriz, Tehran, Xoy, Ərdəbil və digər tarixi Azərbaycan torpaqları da fars-molla rejiminin zülmündən azad olunaraq azadlığına qovuşacaq.

***İ.ƏLİYEV***

# Kənd qadınları: ”Bizə pul verməyin, imkan verin”

## Gülbəniz Qənbərova: "Təşkilatlanan kənd qadınları özləri özlərini işlə təmin edir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb*

***Qadınlar dünya kənd təsərrüfatında çalışan işçilərin 43%-ni təşkil edir. Onlar dünyada sosial-iqtisadi davamlılığın açarıdır, inkişaf prosesləri üçün əhəmiyyətli və əvəzolunmazdırlar. Hər nə qədər təsərrüfatdakı böyük əməkləri gözəgörünməz olsa da, onların çəkdikləri zəhmət sayəsində ailə təsərrüfatları genişlənir, inkişaf edir. Ölkəmizdəki kənd qadınlarına iş imkanlarının yardılmasında, savadlılığın artırılmasında böyük uğurları olan Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərova ilə söhbətləşdik.***





***-Sizinlə bir müddət əvvəl kiçik bir söhbətimiz oldu, o qədər maraqlı layihələrdən söz açdınız ki, daha geniş müsahibə üçün məndə alt zəmin hazırladınız. Söhbətə başlamadan əvvəl Assosiasiyanız barədə kiçik məlumat verək.***

-Bizim Kənd Qadınları Assosiasiyası 2018-ci ildə Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə yaradılıb. Assosiasiyanın yaradılmasında məqsəd kənd qadınlarının, regionların sosial və iqtisadi inkişafına olan töhfəsini artırmaq və onu dayanıqlı etmək olub. Kənd qadınlarının istər sosial, istər iqtisadi inkişafa olan töhfəsini artırmaq üçün isə onların cəmiyyətə inteqrasiyası lazımdır, onların evdən çıxıb hansısa bir işlə məşğul olması, hansısa bir tədbirdə, qərarvermədə iştirakının olması lazımdır.

***-Ümumi götürəndə kənd qadınlarının əsas problemi nədir?***

-Kənd qadınlarının əsas problemi onların cəmiyyətə zəif inteqrasiya olunmasıdır və bunun da çox səbəbləri var. Kənd qadınları haqqında çox stereotiplər var və o stereotiplərin yaranmasının da səbəbi kənd qadınlarının cəmiyyətdən kənarda qalması, cəmiyyətin qaynar məsələlərə onların müdaxilə edə bilməməsidir. Bunun üçün də kənd qadınlarının bacarıqları artırılmalıdır. Kənd qadınların bacarıqlarının artırılması üçün biz çox təşəbbüslər irəli sürürük. Bu təşəbbüslərdən biri də rəqəmsal bacarıqlarının artırılmasıdır. İndi zəmanəmiz dövrümüz, rəqəmsallıq dövrüdür. Onlar rəqəmsal aləmdən kənarda qaldıqca ictimaiyyətə qoşula bilmirlər və bu da inteqrasiya olmaya təsir edir. Kənd qadınları həm təsərrüfat, həm təsərrüfatdan kənar, qeyri-təsərrüfat bizneslərlə məşğul olurlar və bu biznеslərin inkişafı üçün onların rəqəmsal biliklərinin dayanıqlı olması lazımdır. Onların əlaqələri olsun ki, o əlaqələr vasitəsilə onlar məhsul bazara çıxartsınlar, satış eləsinlər. Bütün bu işlərdə də məqsəd odur ki, onlar öz ailələrinə iqtisadi dəstək göstərsinlər.

***-Rəqəmsal bacarıqlarının artırılması üçün Assossiasiya nələr edir?***

-Biz 2021-ci ildən ”Kənd qadınlarının rəqəmsal gücləndirilməsi kampaniyası”na başlamışıq və bu kampaniya çərçivəsində bir çox kəndlərdə bir çox qadınlara, qadın qruplarına rəqəmsallıq təlimləri vermişik. Müxtəlif şirkətlərdən smartfonlar, dizüstü kompüterlər, rəqəmsal avadanlıqlar təmin edərək kənd qadınlarını təchiz eləməyə çalışırıq ki, onlar şəbəkələrə çıxa bilsinlər, elektron ticarətə çıxa bilsinlər. Bax, bu saat kənd qadınlarının inkişafını ləngidən də onların necə deyərlər, rəqəmsal bacarıqlarının zəif olmasıdır.

***-Hazırda ölkəmizdə kənd qadınlarının məşğulluq imkanları necədir?***



-Biz Azərbaycanda ilk dəfə qadınlardan ibarət ”özünə kömək qrupu” modelini tətbiq etmişik. Bu model əsasında kənd qadınları təşkilatlanır. Onlar qruplar təşkil edirlər. O qrupların həm sosial öhdəlikləri olur, həm iqtisadi baxımdan biznes qururlar. Kənddəki işsiz qadınları qurduqları işə cəlb edirlər. Bu qadın özünə kömək qrupu modelinin möhtəşəmliyi ondan ibarətdir ki, qadınlar özləri özlərini işlə təmin edirlər və o, yaratdıqları biznes böyüdükcə kənddəki digər qadınları da cəlb edirlər və o biznesin ətrafında onlar öz iqtisadi imkanlarını artırırlar. İqtisadi imkanları artdıqca qadınların sosial fəaliyyəti də güclənir. Onlar olduqca icmanın sosial işlərinə töhfə vermək imkanı olur. Ona görə də onların kənddə nüfuzu artır.

Məsələn, bizdə qadın qrupları var ki, indi onlar qadın kooperativlərinə çevriliblər, daha geniş istehsalla məşğuldurlar. Bizdə elə qadın qrupları var ki, uzun illərdən bəri kənddə suvarma suyu çəkilə bilmir. Yəni, suvarma suyu yoxdur, amma qadın qrupu öz maliyyə hesabına kənddə suvarma suyu çəkir. Və yaxud pandemiya dövründə onlar çox əhaliyə kömək elədilər. Həmçinin müharibə vaxtı, orduya həm ərzaq göndərdilər, həm dəstək pul yığdılar. Yəni qadınların öz qurduqları biznesləri böyüdükcə, inkişaf etdikcə, gəlirləri artdıqca onlar ictimai işlərə daha çox töhfə qoyurlar. Bizim məqsədimiz də ondan ibarətdir, ucqar rayonlarda yaşayan qadınların bacarıqları artsın ki, onlar özlərinə biznes qura bilsinlər. Biznes qurduqca da onlar icmanın hansısa işinə töhfə verirlər. Bu, kənd qadınlarının, kənddə olan nüfuzunun artmasına səbəb olur, onların həyatını dəyişməyə səbəb olur. Bizim vizionumuz ondan ibarətdir ki, kənd qadınları özü öz inkişafına töhfə versin və bu, belə də olur.

***-Hər hansı qurumdan, dövlət orqanından dəstəkləri varmı?***

-Deyə bilmərik ki, bütün qurumlar diqqəti yönəldiblər kənd qadınlarına, onların inkişafına. Yox, kənd qadınları özü-özünə təşəbbüs göstərir. Özünün inkişafı üçün əlbəttə. Əslində, onların özündə inkişaf olmasa, təşəbbüs olmasa, kənardan istər dövlət qurumları olsun, istər özəl sektor olsun, istər sivil cəmiyyət olsun, nə qədər çalışsaq ki, biz onları nəsə bir irəliyə çəkək, nəsə onlara yeniliklər



gətirək, onların bacarıqlarının artırılması üçün müəyyən işlər görək, onun xeyri yoxdu. Onların özündən bu istək gəlməlidir. Təşəbbüsün olması üçün də onların məlumatı olmalıdır. Onlar bilməlidir ki, dünyada nələr var, cəmiyyətdə nələr baş verir. Onlar inkişafın necə zəruri olduğunu bilməlidir.

***-Özünüməşğulluq proqramından yararlanan kənd qadınları da var yəqin.***

-Məşğulluq imkanları deyəndə, ilk hamının yadına məşğulluq proqramı düşür. Düzdür, özünüməşğulluq proqramının hədəflərində var ki, qadınlara dəstək olsun, amma o proqramın özünün kriteriyaları var. Məşğulluq proqramı heç də bütün kənd qadınları üçün deyil. Məşğulluq proqramı kənddə yaşayan, əlil ailəsində əlil olan, müharibə iştirakçısı olan, ailədə heç kəs işləməyən və s. kimi kriteriyalar qoyur. Yəni, onun o qədər kriteriyaları var ki, kənd qadınlarının çox az bir hissəsi istifadə edir.

Kənd qadınları özləri özlərinə iş qururlar, bir-birinə dəstək olurlar, qrup şəklində təşkilatlanırlar. Onlar təsərrüfatla məşğul olanda kənddəki çox sterotipləri qırırlar. Məsələn, qrup şəklində qadınlar var ki, bir ildə 630 ton tərəvəz istehsal ediblər. Məsələn, Bərdənin Böyük Göyüşlü kəndində ”Fatimə” qadın qrupu var. Sonra Goranboyun Boluslu kəndində ”Şəfa” qadın qrupu var. 23 rayonda 56 qadın inkişaf və müəssisə qrupları biz yaratmışıq ki, onlar kollektiv bizneslərlə məşğul olurlar və bu onların həyatını dəyişir. Kollektiv şəkildə məşğul olanda həm ailədə söz-söhbətolmur, həm də onlar bir-birinə dəstək olaraq bu işi görürlər və çox da böyük uğurları olur.

***-Kənd qadınının kənd işi görməsi niyə ailəsinə söz salsın ki?***

-Məsələn, ailəli gənc qadın səhər istəyir ki, getsin tarlada işləsin, tərəvəz əksin. Təbii ki, ona deyəcəklər ki, sənin tək nə işin var səhərin o çağında çöldə, tarlada bir təhlükə ola bilər sənə. Yəni, istər-istəməz bir problem yaranacaq. Ona görə də qadınlar qrup şəklində gedirlər. Səhər səslənirlər, toplaşırlar, çox şən halda gedirlər işləməyə. Həm işlərini görürlər, həm də bir-biri ilə ünsiyyətdə olurlar. Qadın qruplarının yaradılması həm yerli, həm beynəlxalq təşkilatlar tərəfindən, həm özəl sektor tərəfindən çox böyük, maraq və hörmətlə qarşılanır. Çünki qrup şəklində biznеslə məşğul olan qadınlara investisiya yatırmaq da çox əhəmiyyətlidir. Bir nəfərə investisiya yatırmaqdansa qrupda 15-20 qadın var. Yəni, bir qrupa investisiya yatıranda, istər özəl sektor olsun, istər sivil təşkilatlar olsun, o investisiyanın səmərəliliyi də daha yüksək olur. Bu baxımdan, qadınların təşkilatlanması məsələsinə maraq çox böyükdür, nəticələri də çox gözəldir.

Biz bu yaxınlarda, bu ilin əvvəllərində qadın qrupları haqqında bir kitab çap eləmişik. Kitabın adı belədir: ”Pıçıltılardan səslərə”. O kitabda 50 qadın qrupu haqqında hər məlumat, onların həyat hekayələri var. Qrup haqqında məlumatlar var. Onların biznesləri haqqında, sosial fəaliyyətləri haqqında şəkillər var. Çox informativ bir kitabdır və o kitaba Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, USAID-in Azərbaycan üzrə missiyasının direktoru Maykl Nirbas ön söz yazıb.

***-Deməli, beynəlxalq əlaqələr də var.***

-Bəli. Kənd Təsərrüfatı Nazirliyinin bir layihəsi var, ”Afaq” layihəsi, Paşa Holdinq tərəfindən maliyyələşir. Qadınlar layihədən çox yaxşı istifadə edirlər. Çox da məmnundurlar ”Afaq” layihəsindən. Qadınlar BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının ”Qadınların iqtisadi səlahiyyətlənməsi” layihəsindən faydalanırlar, USAİD təşkilatının ”Özəl sektorun inkişafı” layihəsindən faydalanırlar. Həmin layihələr qadınlara istər kənd təsərrüfatı təlimləri, istər qeyri-təsərrüfat təlimləri, ərzaq istehsalı ilə bağlı, onun qablaşdırılması, satışı, marketinq və s. bacarıqların artırılması ilə bağlı çox dəstək olurlar.

Bizim təşkilat isə həmin kənd qadınlarına dəstək göstərən layihələrin partnyoru olur. Yəni bizim vasitəmizlə onlar öz proqramlarını kənd qadınları ilə, daha doğrusu qadın inkişaf və müəssisə qrupları ilə həyata keçirirlər. Hal-hazırda qadın inkişaf və müəssisə qrupları, beynəlxalq və dövlət proqramları qadınlar üçün olan layihələr qadın qruplarından bir platforma kimi istifadə edirlər. Qadın qrupları vasitəsilə onlar layihələri həyata keçirirlər və çox da uğurlu nəticələri olur. Yəni, qrup olanda orada bir qrup cavabdehliyi var, orada qrupun məsuliyyəti var. Bu baxımdan, qadınların təşkilatı istər biznes sahəsində, istər sosial fəaliyyət sahəsində onlara çox böyük yeni dəyər gətirib.

***-Əslində, bizim bilmədiyimiz çox iş görülürmüş kənd qadınları üçün...***

-Elədir. Bizim qadınların şüarı var, bizə pul verməyin, bizə imkan verin. Çünki imkan olarsa, onlar özləri özlərinin hədəflərinə çox uğurla qovuşa bilirlər. Qadınlara inkişaf üçün pul vermək də olur, müəyyən layihələr var və bunu görmüşük. Amma bu onları çox ələbaxan edir, onları inkişafdan geri saxlayır, təşəbbüsünü limitləndirir. Bax, ona görə bizim qadın qruplarının belə bir şüarı var. Bu şüarla onlar Belçikada bir tədbirə qatılmışdı. Avropa İqtisadi Günləri tədbiri idi, bizim 6 qadın qrupunun rəhbərləri orada iştirak edirdi. Onlar paneldə oturmuşdular. Orada moderatorlardan biri soruşdu ki, sizin mesajınız nədir? Bizim qadınlardan biri dedi ki, bizim mesajımız odur ki, bizə pul verməyin, bizə imkan verin. Yəni imkan olsun ki, bu biznesin inkişafı, sosial fəaliyyətinin limitlənməməsi olsun. Bax, bu baxımdan o, çox böyük bir marağa səbəb olmuşdu. O, çox böyük tədbir idi. İndi elə o vaxtdan da bizim şüar kimi istifadə edirik.

***Lalə Mehralı***

SƏS
25 oktyabr
2023-cü il

# ”Mənzillərin sertifikatla satışa çıxarılması birmənalı qarşılanmayacaq”

*EKSPERT MÜNASİBƏT BİLDİRDİ*



“Azərbaycanda daşınmaz əmlakların alqı-satqısı və sənədləşməsi müxtəlif formalarda aparılır. Paytaxt Bakı şəhərində bəzi binalarda alqı-satqı müqaviləsi və çıxarış əvəzinə sertifikatlar verilib. Nəticədə bu binalarda olan mənzillərin satışına olan tələbat azaldı. Sertifikat dəyişilmir. Bir şəxsə verilir və o, öz mənzilini satarkən həmin sertifikatın arxa hissəsində yeni alıcının adı yazılır. Əgər mənzil dəfələrlə satılırsa, hər dəfəsində sertifikata yeni alıcının adı qeyd olunur”. Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Elnur Fərzəliyev deyib.

Onun sözlərinə görə, yeni tikili çoxmərtəbəli binaların satışı iki mexanizm ilə həyata keçirilir: ”Bir Mənzil Tikinti Kooperativinin (MTK) verdiyi alqı-satqı müqaviləsi, maliyyə arayışı və çıxarış. Vətəndaşlar daha çox çıxarışlı mənzillərə üstünlük verirlər”.

Ekspert qeyd edib ki, mənzillərin sertifikatla satışa çıxarılması birmənalı qarşılanmayacaq: ”Müqaviləli mənzillərin satışı zamanı çox hallarda vətəndaşlara zərərlər dəyib. MTK-lar tərəfində zərərçəkmiş şəxslərin sayı 5200-dən artıqdır. Onların mənzilləri bir neçə şəxsə satılıb və ya tikilib başa çatmayıb. Binalar tikilərkən ilkin çıxarışla satılması uyğundur. İlkin çıxarış praktikası mövcuddur. Bəzi şirkətlər var ki, uzunmüddətli daxili kreditlərlə mənzillər satırlar. Hətta bir neçə ilə tikiləcək binaları da ilkin çıxarışla bank vasitəsi ilə satmaq olar. Müqavilə mexanizmi effektiv deyil. İnsanlar aldadılmamaq və qeydiyyata düşmək üçün çıxarışlı mənzillərə üstünlük verirlər”.

”Düşünürəm ki, mənzillərin satış prosesi dəyişdirilməlidir. MTK-lar satış zamanı ilkin çıxarış verərsə, böyük əminlik yaradacaq”,- deyə o əlavə edib.

***Ləman Sərraf***

# Kafe və restoranlarda alınan xidmət haqqı kimə çatır?

*ŞƏRH EDİLDİ*




“Restoran və kafelərdə xidmət haqqı ilə bağlı əldə olunan gəlirlər bilavasitə restoran və kafenin özünə məxsusdur. Orada xidmət göstərən, çalışanlarla hər hansı xüsusi bir razılaşma olmadığı müddət ərzində də bu təbii olaraq kafe və restoranların gəlirinə daxil olur. Eyni zamanda əldə edilən gəlirin nəyə, hansı formada xərclənməsi də restoranın öz funksionallığına qalan bir məsələdir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, xidmət haqqının istənilməsi ilə bağlı qanunvericilikdə hər hansı bir qadağa yoxdur: ”Bu prosesi bazar tənzimləyir. Hansısa restoranda xidmət haqqı yüksək olduqda müştərilər üz döndərir. Əgər bunun əksi olursa, müştərilər yüksək xidmət haqqına rəğmən restorana gedirlərsə, bu da onların prosesdən məmnun olduqlarının göstəricisidir. Lakin təqdim edilən menyuda hər hansı xidmət haqqı qeyd edilməyibsə təqdirdə, bu artıq qanunvericiliyin tələblərinin pozulması hesab edilir. Amma müştəriyə təqdim olunan menyuda xidmət haqqı göstərilib və müştəri də qəbul edibsə, bu zaman sözsüz şəkildə ödənişlər edilməlidir”.

***Səbinə Hüseynli***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# ”iPhone 15”də aşkarlanan problemlər nə zaman həll ediləcək?

*MÜTƏXƏSSİS AÇIQLADI*



“Ötən ay təqdimatı ilə hər kəsin marağına səbəb olan ”iPhone 15” modelləri son günlərdə problemlərlə gündəmə gəlir”. Bu sözləri SİA-ya açıqlamasında SMM Manager (Sosial Media Marketing Mütəxəssisi) Murad Yazimov deyib. Mütəxəssis sözlərinə belə davam edib: ”Apple” yeni modelləri tanıtdığına peşman oldu desək yeridir. Belə ki, satışa çıxarılan yeni modellərin istifadəçilər tərəfindən cihazların həddindən artıq isinmə şikayətləri oldu. Hətta bəzi istifadəçilər cihazlarının istiliyinin 38 dərəcəni keçdiyini bildirdi. Artan şikayətlərdən sonra ”Apple”, yeni iPhone-lardə olan isinmə probleminin proqram təminatı ilə əlaqələndiyini və düzəldiləcəyini bildirdi. Əlavə olaraq şirkət iOS 17-nin təminatında və üçüncü tərəf proqramların sistemə yüklənməsi nəticəsində çox işləməsinə görə də ilk zamanlarda işinə biləcəyini açıqladı.

Bununla yanaşı iOS 17-də bəzi istifadəçilərə təsir edəcək bir xəta olduğunu və bunun da yeniləmə ilə aradan qaldırılacağını bildirdi. Ama yaranan problem və gələn şikayətlər bununla bitmir.İstifadəçilər tərəfindən yeni iPhone modellərinin səs sistemindən də şikayətlər alındı. Cihazda yüksək səslə musiqi dinləmək istəyən istifadəçilər səslərdə pozulmalar yaşandığına görə ”Apple Store”yə üz tutdular. ”Apple”, alınan şikayətləri qəbul edib cihazları dəyişsə də bu problem dəyişdirilən cihazlarda da yaşanmağa davam etdi. Amma şirkət tərəfindən bu səs problemi ilə bağlı bir açıqlama olunmayıb.

Bu problemlərin ardınca fərqli şikayətlər gəlməyə davam etdi. Belə ki, fərqli istifadəçilər tərəfindən yeni İphone modellərində ”Ekran Yanğısı” adlanan problemin də olduğu bildirildi. İstifadəçilər ekran görüntüsündə pozulmalar, qrafik pozulmaları və pixel problemləri olduğunu bildirdi. Mütəxəssislərdən bəziləri bunun proqram təminatına görə olduğunu və yeniləmələr ilə aradan qaldırılacağını, bəziləri isə paneldə istifadə olunan piksellərə görə olduğunu bildirsə də hələ də rəsmi açıqlama gəlməyib”.

***Ayşən Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000